RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 22 (8338) BAZAR, 2 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



2 fevral Gənclər Günüdür



# Azərbaycan gəncliyi güclü dövlət qayğısı ilə əhatə olunub

**1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin birinci forumunun keçirilməsi respublikanın həyatında müstəsna əhəmiyyətə malik bir hadisə oldu. Forum müstəqil ölkənin qarşısında duran vəzifələrin həyata keçirilməsində gənclərin fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu.**

1997-ci il fevralın 1-də isə Azərbaycan Prezidentinin forum nümayəndələrinin bir qrupu ilə görüşündə forumdan keçən bir il ərzində görülmüş işlər təhlil olundu və gəncliklə bağlı əsas problemlərin həlli yolları müəyyən edildi. Ulu Öndər Heydər Əliyevin elə həmin gün imzaladığı sərəncamla fevralın 2-si Gənclər Günü elan edildi. Artıq 23 ildir ki, bu tarix ölkəmizdə Gənclər Günü kimi qeyd edilir.

## Gənclik Heydər Əliyev yoluna sadiqdir

Müstəqilliyimizin ilkin çağlarında hakimiyyətə yiyələnən qüvvələrin siyasi və ideoloji səbatsızlığı gəncləri də öz burulğanına salmışdı. Azərbaycan gəncliyi yeni qazanılmış müstəqilliyimizin gücləndirilməsinə heç cür xidmət göstərə bilmirdi. Yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə dönüşü gənclik enerjisinin məhz Azərbaycanın gələcəyinə və dövlətçilimizə xidmətini təmin etdi. Ulu Öndərin 1993-cü ilin sentyabrında gənclərlə görüşü onlarla işin dövlət siyasətinin prioritet qollarından birinə çevriləcəyini düşünməyə əsas verirdi və belə də oldu. Ulu Öndər gənclərə diqqət və qayğını dövlətin əsas fəaliyyət istiqamətlərindən birinə çevirdi.

1996-cı il fevralın 2-də keçirilən birinci forumda iştirak edən Ulu Öndər Heydər Əliyev “Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”, - deyərək gənclər qarşısında tarixi bir vəzifə qoydu. Eyni zamanda Ulu Öndər dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanaraq onların qarşısında geniş imkanlar açdı. Gənclər mühüm dövlət və hakimiyyət orqanlarında məsul vəzifələrə irəli çəkildilər.

Qürurla qeyd etməliyik ki, Azərbaycan gəncliyi Heydər Əliyevin vaxtilə müəyyən etdiyi yola, tövsiyə və nəsihətlərinə daim sadiq oldu. Məhz Ulu Öndərin əsasını qoyduğu dövlət gənclər siyasəti aradan ötən illərdə gəncliyin inkişaf yoluna işıq saldı. Onun dövlət quruculuğunda və idarəçiliyində, bir sözlə, cəmiyyət həyatının bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsini təmin etdi.

## Gənclərə meydan verən dövlət proqramları

Ötən 16 ildə böyük inkişaf yolu keçən Azərbaycan məhz Heydər Əliyevin müəllifi olduğu siyasətin nəticəsində tarixdə olmadığı qədər güclü dövlətə çevrilib. Bu siyasəti yaşadan, inamla davam etdirən, dövrün tələblərinə uyğunlaşdıran isə Prezident İlham Əliyevdir. Ölkəmizdə bütün sahələr üzrə qazanılan nailiyyətlər dövlətimizin iqtisadi-siyasi potensialını, ümumi inkişaf səviyyəsini əks etdirən əsas meyarlardandır. Gördüyü işlərin miqyası ilə bütün xalqımızın rəğbətini qazanan Prezident İlham Əliyevin son 16 ildəki fəaliyyətini ümumiləşdirilmiş şəkildə belə xarakterizə etmək olar: güclü hakimiyyət, güclü iqtisadiyyat, güclü xalq. Bir-biri ilə sıx bağlı olan bu məsələlər məhz cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə həllini taparaq Azərbaycanın inamlı tərəqqi yoluna çıxmasını təmin edib.

Bu dövrdə gənclər siyasəti də layiqincə həyata keçirilib. Xüsusən bu illərdə müvafiq dövlət proqramlarının və qərarların fonunda mahiyyətcə yeni mərhələyə yüksəlib. Bu isə dövlətin həyata keçirdiyi düşünülmüş, ardıcıl ictimai-sosial islahatlardan əhalinin bütün təbəqələri kimi gənclərin də hərtərəfli yararlanmasına şərait yaradıb. “Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram”, - deyən Prezident İlham Əliyev qərarları ilə Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini təsdiq edib. Dövlət başçısının təsdiq etdiyi və 2005-2009-cu illərdə həyata keçirilən dövlət proqramı gənclərə olan dövlət qayğısının davamı idi. Neft gəlirlərini “insan kapitalı”na çevirən Prezident İlham Əliyev bu işdə də gənclərin üzərinə böyük məsuliyyət qoydu və “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı”nı təsdiqlədi. 2007-ci ili ölkədə “Gənclər ili” elan etməklə Prezident İlham Əliyev gənclərin inkişafına nə qədər böyük önəm verdiyini nümayiş etdirdi.

Ardı 5-ci səh.

# Masallı rayonu 2020-ci ilin “Gənclər Paytaxtı” seçilib




Masallı rayonu 40,3 faiz səs toplayaraq 2020-ci ilin “Gənclər Paytaxtı” seçilib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səsvermədə Azərbaycanın 16 şəhər və rayonu iştirak edib. Builki səsvermə iki region - Masallı və Lənkəran arasında gedən gərgin mübarizə ilə yadda qalıb. Belə ki, sesvermənin davam etdiyi yeddi gün ərzində Lənkəran rayonu ön sıralarda yer almaq üçün mübarizə aparıb. Lakin səsvermənin ilk günlərində Masallı rayonu birinci sıraya yüksəlib və sonadək liderlik mövqeyini əldən verməyib. Nəticədə 40,3 faiz səs toplayan Masallı Lənkəran rayonunu (23,4 faiz) geridə qoyaraq “Gənclər Paytaxtı 2020” adına layiq görülüb.

Xatırladaq ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 2012-ci ildən “Gənclər Paytaxtı” internet müsabiqəsi uğurla davam edir. Bu layihə “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramına müvafiq olaraq müsabiqə yolu ilə həyata keçirilir. Dövlət Proqramının əhatə etdiyi dövrdə hər il ölkənin bir rayon və ya şəhəri Azərbaycanın “Gənclər Paytaxtı” elan edilir. Bu il yanvarın 24-dən start götürmüş müsabiqə yanvarın 30-da başa çatıb.

Hər il olduğu kimi, bu il də səsvermə www.gencler-paytaxti.az saytı vasitəsilə həyata keçirilib. Ümumilikdə sayta 3 milyon 602 min 395 nəfər daxil olub ki, onlardan da 90 min 849 nəfəri bu ilin payına düşür.

Hər il “Gənclər Paytaxtı” müsabiqəsinin qalibi olmuş şəhərin və ya rayonun adı Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə keçirilən tədbirdə rəsmi qaydada açıqlanır və paytaxtın “Rəmzi açarı” şəhərin rəsmi nümayəndəsinə təqdim olunur.

# İşimizi ASANlaşdıran könül adamları

**Hər insan öz həyatının könüllüsüdür əslində. Özü üçün nələrsə etdikdə qarşılığında mənfəət gözləmir, nəsə ummur. Hər şeyi cani-könüldən edir. Bir də var başqalarına könüllü xidmət etmək...**

Hansısa sahədə könüllü fəaliyyətlə məşğul olmağın insanın özü üçün könüllü nələrsə etməkdən bir fərqi var. O da əldə etdiyinin özünlə bərabər digərlərinə də xeyirli olması...

Ətrafımızda çoxdur belələri - bu humanist yola qədəm qoyub insanlara könül gözü ilə yardım edənlər... Elə indi də onların əhatəsindəyik, başqalarının xeyri üçün təmənnasız xidmət göstərən könüllülərlə bərabərik... Bu könül adamları ilə söhbətləşmək, iş prosesləri ilə maraqlanmaq üçün 1 saylı “ASAN xidmət” mərkəzindəyik...

Qapıdan içəri addımını atar-atmaz işinin asan olacağı gün kimi aydın olur. Çünki mehriban personal, işlərinin rəvan getməsi üçün əllərindən gələn köməyi əsirgəməyən könüllülər vətəndaşları gülərüzlə qarşılayır, onları lazımi yerə istiqamətləndirir, problemlərini minimum vaxt ərzində həll etməyə çalışır və elə gülərüzlə də yola salırlar.

## “Könüllülük stereotipləri qırmağıma kömək etdi”

Burada 100 könüllü gündəlik olaraq 3 növbədə fəaliyyət göstərir. Könüllülər işə ilk olaraq növbə aparatlarından başlayır. Yəni ilk işləri buraya gələn insanlara növbə aparatlarında kömək etmək olur. Daha sonra isə anket doldurur, ərizə yazır və digər işləri icra edirlər.

Ardı 6-cı səh.

# Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr!

Ölkənizdə yeni növ koronavirusun baş qaldırması nəticəsində vəfat edənlərlə bağlı xəbərlər məni olduqca kədərləndirir.

Epidemiyanın yayılmaması və insan tələfatının qarşısının alınması istiqamətində Çin hökumətinin atdığı addımları, Çin xalqının nümayiş etdirdiyi əzmi yüksək qiymətləndirirəm. İnanıram ki, Sizin rəhbərliyiniz altında Çin Xalq Respublikası bu bəlanın öhdəsindən layiqincə gələcək.

Əmin ola bilərsiniz ki, bu müvəqqəti çətin günlərdə də Azərbaycan xalqı dost Çin xalqı ilə həmrəydir və biz hər cür yardım göstərməyə hazırıq.

Xəstəliyə düçar olaraq vəfat edənlərin ailələrinə şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, virusa yoluxanların tezliklə sağalmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2020-ci il*

9 fevral Milli Məclisə seçkilər günüdür

# Hamı yaradılan şəraitdən razıdır

**1993-cü ilin oktyabrından məcburi köçkün həyatı yaşayan zəngilanlılar respublikamızın 46 rayon və şəhərində yaşayırlar. Rayonun icra strukturları Abşeron rayonunun Masazır qəsəbəsində fəaliyyət göstərir.**



Hazırda rayon əhalisi 45 000 nəfərdən çoxdur. Onların əksəriyyəti Bakı və Sumqayıt şəhərlərində məskunlaşıb. Zəngilanlılar da qarşıdan gələn parlament seçkilərinə ciddi hazırlaşırlar.

125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 18 saylı məntəqəsində bunun şahidi olduq. Bu məntəqə Sumqayıt İnşaatçılar qəsəbəsində yerləşən 18 saylı tam orta məktəbin binasında təşkil olunub. Məntəqə seçki komissiyasının sədri Surxay Cabbarov bildirdi ki, dairə üzrə 16 namizəd qeydə alınıb. Onların hər biri üçün bərabər şərait yaradılıb. Təşviqat lövhələrində posterləri asılıb. Seçicilərlə görüş keçirmələri üçün müvafiq yerlər ayrılıb. Hazırda deputatlığa namizədlər öz təbliğat-təşviqatlarını aparırlar.

Məntəqə bütün texniki avadanlıqlarla təmin edilib. Seçicilərə bildirişlər paylanır. Seçicilərin hamısına bülletenlər çatdırılacaq və onların səsvermədə iştirakı təmin ediləcək.

S.Cabbarov Milli Məclisə seçkilərlə bağlı keçirilən maarifləndirici treninqlərin əhəmiyyətindən də söz açdı. Belə treninqlər seçkilərin şəffaf və qanunauyğun təşkili üçün mühüm əhəmiyyətə malikdir. Çünki treninq iştirakçıları hazırlığın gedişi ilə bağlı hərtərəfli məlumatlandırılırlar. Ümumiyyətlə, bu təlimlər Milli Məclisə seçkilərin yüksək səviyyədə təşkili üçün yaxşı imkan yaradır.

***“Azərbaycan”***

# Gəncliyə dəyər verən siyasət

**Xalq və ümumən bəşəriyyət üçün tarixi əməllərə imza atmış siyasi liderlər bütün digər xidmətləri ilə yanaşı, həm də bütöv nəsillər formalaşdırırlar. Bu nəsillərin hansı ruhda böyüyüb tərbiyələnməsi, hansı ideyaların daşıyıcısı olması liderlərin onlar üçün yaratdıqları örnəklərdən, həyat və fəaliyyətləri ilə təlqin etdikləri prinsiplərdən çox asılıdır. Müstəqil Azərbaycan Respublikasını tarixin ən böyük nailiyyətlərinə yetirmiş Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətində də gəncliyə qayğı məsələləri mühüm yer tutur. Bu, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlət gənclər siyasətinin müasir dünyamızın reallıqları şəraitində daha böyük əzmkarlıqla davamıdır.**

## “Könüllülər ili”nin gəncləri

Bu il “Gənclər günü” ölkəmiz üçün xüsusilə mühüm əhəmiyyət kəsb edir: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2019-cu il tarixli sərəncamı ilə 2020-ci il ölkəmizdə “Könüllülər ili” elan edilib. Bu tarixi qərarın gənclərlə bağlılığı böyükdür.

Sərəncamda da qeyd edildiyi kimi, könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbidir. Öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Dünyanın bütün ölkələrində könüllülük deyəndə, ilk növbədə gənclər yada düşür. Onlar öz iradələrinin diqtəsi, ictimai faydalı fəaliyyətləri, gənclik enerjiləri ilə dövlətə, cəmiyyətə, ümumən isə bəşəriyyətə göstərdikləri təmənnasız xidmətlə könüllülük hərəkatının aparıcı qüvvəsi kimi çıxış edirlər. Azərbaycan gəncliyi də son illərdə öz fədakarlıqları, faydalı olmaq əzmi ilə könüllülük fəaliyyətinin mükəmməl örnəyini yaradıblar. Bu baxımdan 2020-ci ilin ölkəmizdə “Könüllülər ili” elan olunması könüllü ruhu ilə yaşayan insanlara, o cümlədən belə bir ruhda yetişən dəyərli gənclərimizə verilən çox yüksək qiymətdir.

Ardı 7-ci səh.

## "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1511-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 aprel tarixli 627 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1511-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.1.4-cü maddəsində "orqanlar (qurumlar)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları və onların strukturuna daxil olan qurumlar, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

1.2. həmin Qanunun 7.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası nəzərdə tutulur.

2. "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1511-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 aprel tarixli 627 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 627) 2.3-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4-cü və 2.5-ci bəndlər əlavə edilsin:

"2.4. həmin Qanunun 6.1.4-cü maddəsində "orqanlar (qurumlar)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları və onların strukturuna daxil olan qurumlar, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.5. həmin Qanunun 7.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Hesablama Palatasının və prokurorluq orqanlarının binalarına Azərbaycan Respublikasının Dövlət Gerbinin qabarıq təsvirinin vurulması tövsiyə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 27 iyul tarixli 164 nömrəli və "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 270-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 18 iyul tarixli 996 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1582-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 733 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 164 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 426; 2003, № 10, maddə 571; 2009, № 4, maddə 226; 2014, № 11, maddə 1410; 2016, № 12, maddə 2074) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci və üçüncü abzaslar müvafiq olaraq üçüncü və dördüncü abzaslar hesab olunsun, aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Turizm haqqında" Azərbaycan Respublikası Qanununun 4-1.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

1.2. üçüncü abzasda "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

1.3. dördüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"həmin Qanunun 4-1.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.".

2. "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 270-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 iyul tarixli 996 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1267) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci və 2.2-ci bəndlər müvafiq olaraq 2.2-ci və 2.3-cü bəndlər hesab olunsun, aşağıdakı məzmunda 2.1-ci bənd əlavə edilsin:

"2.1. "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 5.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

2.2. 2.2-ci bənddə "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

2.3. 2.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. həmin Qanunun 5.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 266 nömrəli və "Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə"nin təsdiq edilməsi barədə" 2008-ci il 20 iyun tarixli 773 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Ekoloji təhlükəsizlik haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Avtomobil yolları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Aviasiya haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1580-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 731 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 45; 2001, № 12, maddə 755; 2008, № 8, maddə 719; 2010, № 3, maddə 181, № 10, maddə 848; 2011, № 4, maddə 292; 2016, № 2 (II kitab), maddə 251) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci-yeddinci abzaslar müvafiq olaraq üçüncü-səkkizinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"həmin Qanunun 44-cü maddəsinin 2-ci hissəsinin ikinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

1.2. səkkizinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"həmin Qanunun 44-cü maddəsinin 2-ci hissəsinin ikinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.".

2. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli 773 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 491; 2016, № 11, maddə 1801) ilə təsdiq edilmiş "Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə"nin 4.6.9-cu yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.6.9. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun əlavəsində nəzərdə tutulmuş fəaliyyət növləri üzrə ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi (ƏMTQ) tərtib edilmədən və həmin sənədin dövlət ekoloji ekspertizası aparılmadan fəaliyyətin həyata keçirilməsi, habelə ətraf mühitə təsirin qiymətləndirilməsinin aparılması tələb olunmayan, lakin dövlət ekoloji ekspertizasının obyekti olan və dövlət ekoloji ekspertizasının müsbət rəyi olmadan digər fəaliyyətin həyata keçirilməsi.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1658-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 51; 2014, № 5, maddə 477; 2016, № 5, maddə 861; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 iyul tarixli 797 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bəndinə "2-ci maddəsinin" sözlərindən əvvəl "1.4-cü maddəsinin ikinci cümləsində," sözləri əlavə edilsin.

2. 2.6-cı bəndinə "Qanunun" sözündən sonra "1.4-cü maddəsinin ikinci cümləsində," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" 2014-cü il 14 may tarixli 161 nömrəli və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 20 aprel tarixli 867 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1581-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 161 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 474; 2015, № 9, maddə 990) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1-ci bəndə "Qanununun" sözündən sonra "5.4-cü maddəsində və" sözləri əlavə edilsin;

1.2. 3.2-1-ci və 3.6-cı bəndlərin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.7-ci bənd əlavə edilsin:

"3.7. həmin Qanunun 5.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.".

2. "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 867 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 672) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci bənddə "4-cü maddəsində" sözləri "3.5-ci və 4-cü maddələrində" sözləri ilə əvəz edilsin;

2.2. 2.2-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.3-cü bənd əlavə edilsin:

"2.3. həmin Qanunun 3.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında, 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də və 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apelyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28; 2002, № 8, maddə 495; 2005, № 12, maddə 1111; 2007, № 12, maddə 1241; 2008, № 5, maddə 363; 2010, № 2, maddə 80; 2017, № 8, maddə 1518; 2018, № 2, maddə 170, № 11, maddə 2249; 2019, № 1, maddə 75, № 8, maddə 1403) 3.23-cü bəndində "yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, inzibati ərazi dairələri üzrə nümayəndəliklər və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər" sözləri "Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 1.5-ci bəndinin birinci cümləsindən "dövlət büdcəsindən maliyyələşən" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 226; 2017, № 12 (I kitab), maddə 2335; 2018, № 4, maddə 661; 2019, № 4, maddə 655) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apelyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 1.1-ci bəndində "dövlət büdcəsindən maliyyələşən qurumların" sözləri "orqanların" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3-cü hissəsini nəzərə alaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə indiyədək qəbul olunmuş Azərbaycan Respublikası qanunlarının tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanlarında dəyişiklik edilməsi və ya onların ləğvi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2016-cı il 7 dekabr tarixli 1149 nömrəli və "Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" 2019-cu il 12 aprel tarixli 624 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1581-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 732 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1149 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2067; 2019, № 3, maddə 413) ilə təsdiq edilmiş "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası"na aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Qanunun 3.1-ci maddəsində nəzərdə tutulan tikinti və infrastruktur obyektləri və onlara oxşar obyektlərin layihələndirilməsi "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun əlavəsində nəzərdə tutulmuş fəaliyyət növlərinə aid olduqda, bu obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı və həmin sənədin dövlət ekoloji ekspertizası aparılmalıdır.".

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 aprel tarixli 624 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 624) ilə təsdiq edilmiş "Sosial Tədqiqatlar Mərkəzinin Nizamnaməsi"nin 2.2.5-ci və 3.1.17-ci yarımbəndlərinə "institutları" sözündən sonra "və hüquqi şəxslər" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi"nin və "Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" 2001-ci il 4 iyul tarixli 531 nömrəli, "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 2003-cü il 23 oktyabr tarixli 977 nömrəli və "Azərbaycan Respublikasının Hirkan Milli Parkı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2004-cü il 24 aprel tarixli 57 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1582-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 733 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 531 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 468; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1556; 2015, № 9, maddə 1018; 2016, № 2 (II kitab), maddələr 234, 251; 2018, № 4, maddə 688) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi"nə aşağıdakı məzmunda 6.5-6.8-ci bəndlər əlavə edilsin:

"6.5. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

6.6. Bu Əsasnamənin 6.5-ci bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

6.7. Bu Əsasnamənin 6.5-ci bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

6.8. Bu Əsasnamənin 6.5-ci bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

2. "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 977 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 582; 2007, № 8, maddə 769, № 12, maddə 1246; 2013, № 11, maddə 1335; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2018, № 6, maddə 1221 ) 1-ci hissəsinin 5-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci-dördüncü abzaslar müvafiq olaraq üçüncü-beşinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

2.2. beşinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"həmin Qanunun 8-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.".

3. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 24 aprel tarixli 57 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 237; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1557; 2018, № 4, maddə 690; 2019, № 3, maddə 412) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Hirkan Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.5 - 5.8-ci bəndlər əlavə edilsin:

"5.5. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.6. Bu Əsasnamənin 5.5-ci bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.7. Bu Əsasnamənin 5.5-ci bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.8. Bu Əsasnamənin 5.5-ci bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında" 2004-cü il 3 avqust tarixli 106 nömrəli, "Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2004-cü il 23 noyabr tarixli 147 nömrəli, "Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2005-ci il 27 aprel tarixli 227 nömrəli və "Azərbaycan Respublikasının Göygöl Milli Parkı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2008-ci il 19 noyabr tarixli 18 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1582-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 733 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddələr 614, 625; 2005, № 8, maddə 715; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 2, maddə 86; 2014, № 12, maddə 1558; 2015, № 9, maddə 1019; 2018, № 4, maddə 691; 2019, № 3, maddə 412) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmanla təsdiq edilmiş "Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4-5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.";

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4-5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.";

1.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ağgöl Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4-5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

2. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 911; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1559; 2015, № 9, maddə 1020; 2018, № 4, maddə 692; 2019, № 3, maddə 412) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4-5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

3. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 302; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 8, maddə 724; 2014, № 12, maddə 1560; 2015, № 9, maddə 1021; 2018, № 4, maddə 693; 2019, № 3, maddə 412) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4-5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

4. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 18 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 974; 2011, № 2, maddə 85; 2014, № 12, maddə 1561; 2015, № 9, maddə 1022; 2018, № 4, maddə 694; 2019, № 3, maddə 412) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Göygöl Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4-5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib

Fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: Ölkəmizdə Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan idman siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq bu gün Azərbaycan dünya miqyasında güclü idman dövləti kimi tanınır. İldən-ilə idman nəticələrimiz, uğurlarımız artmaqda davam edir. Formalaşan güclü idman infrastrukturu ölkəmizi idman ölkəsinə və beynəlxalq yarışların keçirildiyi mərkəzə çevirir. Ölkə Prezidenti cənab İlham Əliyev idmançılarla görüşündə demişdir: "İdman hər bir ölkənin gücünü göstərir. İdmana olan diqqət və qayğı hər bir ölkənin dövlət siyasəti olmalıdır. Azərbaycanda bu, belədir. Uğurlarımızın təməlində məhz dövlət siyasəti dayanır. Məhz dövlət siyasəti, idmançılarımızın peşəkarlığı, mütəxəssislərin və federasiyaların birgə fəaliyyəti bu uğurları şərtləndirir".

Qeyd olunub ki, hazırda muxtar respublikada 58 idman müəssisəsi və 886 idman obyekti fəaliyyət göstərir. İdmanın tədrisi və gənclərin fiziki hazırlığı ilə 812 müəllim məşğul olur. Uşaq və gənclərin idmana cəlbi istiqamətində həyata keçirilən kompleks tədbirlər nəticəsində muxtar respublikada idman tədbirləri beynəlxalq xarakter alır. Müasir idman infrastrukturu və bu sahəyə göstərilən qayğının nəticəsidir ki, 2019-cu ildə muxtar respublikada 1 ölkə və 5 beynəlxalq səviyyəli idman tədbiri keçirilib. Muxtar respublika idmançıları 2019-cu il ərzində idmanın müxtəlif növləri üzrə nailiyyətlər əldə edib, dünya, Avropa və beynəlxalq turnirlərdə 190, Azərbaycan çempionatlarında 179 medal qazanıblar. 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə 18 yaşadək olan idmançılardan 1-i idman sahəsində nailiyyətlərinə görə Gənc istedadların xüsusi təqaüdünə layiq görülüb və adı "Qızıl kitab"a yazılıb.

Ali Məclisin Sədri deyib: Peşəkar məşqçilərin hazırlanması və idmançılara məşğələlərin keçirilməsi 2020-ci ildə də Gənclər və İdman Nazirliyi, eləcə də idman federasiyaları tərəfindən davam etdirilməli, muxtar respublikaya təcrübəli məşqçilər dəvət olunmalı, məşqçilərə təlimlərin, idmançılara nümunəvi dərslərin keçirilməsi təmin edilməlidir. "Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi"ndə istifadəyə veriləcək Xizək Mərkəzində muxtar respublikada xizəksürmə idman növünün inkişafı üçün yeni imkanlar yaradılır. Gənclər və İdman Nazirliyi idmanın bu növünə marağı artırmalı, gənclərlə fəal iş aparmalıdır. Gənclər və İdman Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə məhdud fiziki imkanlı gənclərin muxtar respublikanın idman həyatına daha fəal inteqrasiyasını davam etdirməli, bədən tərbiyəsi və idmanın bu kateqoriyadan olan şəxslərin reabilitasiyasında əhəmiyyəti ilə bağlı maarifləndirici tədbirləri həyata keçirməlidir. İdman federasiyaları federasiya daxilində istedadlı gənclərin məlumat bankına hər yarışdan sonra məlumatların yerləşdirilməsini nəzarətdə saxlamalı, Gənclər və İdman Nazirliyi internet saytında yerləşdirilən elektron məlumat bankının mütəmadi yenilənməsini təmin etməlidir.

Ali Məclisin Sədri qeyd olunan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulayıb, 2 fevral Gənclər Günü münasibətilə muxtar respublika gənclərini təbrik edib.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək deyib ki, bu gün muxtar respublikada müasir idman infrastrukturu formalaşdırılıb, uşaq və gənclərin idmanla məşğul olmasına, onların müxtəlif səviyyəli çempionat, turnir və yarışlarda iştirak etməsinə hərtərəfli şərait yaradılıb. 2019-cu ildə muxtar respublikada beynəlxalq turnirlər, Azərbaycan çempionatları keçirilib, eləcə də idmançılarımızın Azərbaycanda və dünyanın müxtəlif ölkələrində keçirilən yarışlarda iştirakı təmin edilib. Yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikada stolüstü tennis, üzgüçülük, həndbol, fitnes, aerobika və Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölmələrində, həmçinin digər idman növləri üzrə qızların sayı artmaqdadır. Federasiyaların fəaliyyəti barədə məlumat verən Azad Cabbarov deyib ki, Hava və Ekstremal İdman Növləri, Voleybol və Basketbol federasiyaları il ərzində idmançıların Azərbaycan və beynəlxalq səviyyəli yarışlarda iştirakını təmin etməyib, keçirilən muxtar respublika səviyyəli yarışlarda keyfiyyət və təşkilatçılıq aşağı olub. Hər üç federasiyada peşəkar məşqçi müəllimlərin və idmançıların hazırlanması işi aparılmayıb. Peşəkar məşqçi-müəllim və idmançıların olmaması bu federasiyaların muxtar respublikadan kənarda keçirilən yarışlarda iştirak etməməsinə səbəb olub.

Ali Məclisin Sədri tapşırıb ki, Gənclər və İdman Nazirliyi Hava və Ekstremal İdman Növləri, Voleybol və Basketbol federasiyaları ilə birlikdə Tədbirlər Planı hazırlasın, nöqsanlar aradan qaldırılsın və federasiyaların fəaliyyətində dönüş yaradılsın.

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının məşqçi-müəllimi Əsgər Abdullayev çıxış edərək deyib ki, muxtar respublikada futbolun inkişafı diqqətdə saxlanılır. Bu idman növünün inkişafı üçün hər cür şərait yaradılıb. Ona görə də yeniyetmə və gənclərin futbola marağını artırmağı, istedadlı futbolçuları üzə çıxarmağı, onlara bacarıqlarımızı öyrətməyi qarşıya məqsəd qoymuşuq.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının idmançısı Sadiq Qarayev bildirib ki, muxtar respublikada müasir idman infrastrukturunun yaradılması gənclərin sağlamlığının qorunmasında, onların asudə vaxtlarının səmərəli təşkilində və istedadlı gənclərin üzə çıxarılmasında mühüm rol oynayır. Olimpiadalarda, digər mötəbər yarışlarda qələbələr qazanan idmançılar böyük diqqətlə və qayğı ilə əhatə olunurlar.

Sonra Ali Məclisin Sədri 2019-cu ildə ölkə və beynəlxalq yarışlarda uğurlu nəticələrə görə 7 idmançıya və 3 məşqçi-müəllimə mükafat təqdim edib.

# 9 fevral Milli Məclisə seçkilər günüdür

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



Fevralın 1-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə komissiyanın 2020-ci il yanvarın 23-də keçirilmiş iclasının protokolu təsdiq olunub.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səlahiyyətli nümayəndəsinin səlahiyyətinə xitam verilməsi ilə bağlı Müasir Müsavat Partiyasının müraciətinə baxılıb və sözügedən partiyanın müraciəti təmin olunaraq səlahiyyətli nümayəndənin qeydiyyatı ləğv olunub, ona verilən lövhəcik etibarsız hesab edilib.

Daha sonra qarşıdan gələn 9 fevral Milli Məclisə seçkilərdə seçkiqabağı təşviqat qaydalarının pozulması iddiası ilə MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Maraqlı subyektlərin də iştirakı ilə komissiya üzvləri tərəfindən aparılan geniş müzakirələr nəticəsində müraciətlər təmin edilib və seçkiqabağı təşviqatın aparılmasına dair qanunvericiliyin tələblərini pozan seçki subyektlərinə xəbərdarlıq olunub.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda, həmçinin cari məsələlərə baxılıb.

## Seçkiləri müşahidə etmək üçün MSK-ya müraciət edənlərin hamısı qeydə alınıb

Azərbaycan Respublikasının bütün seçki dairələrində müşahidə aparılması üçün 4264 nəfər Mərkəzi Seçki Komissiyasına müraciət edib.

AZƏRTAC Secki-2020.az saytına istinadla xəbər verir ki, bunu MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli deyib. Ş.Əsədli bildirib ki, müraciət edənlərin hamısı qeydə alınıb.

Qeyd edək ki, Milli Məclisə seçkilərlə bağlı bütün seçki dairələrində müşahidə aparılması üçün MSK-ya müraciət müddəti 2020-ci il yanvarın 30-dək olan dövrü əhatə edib.

## Masallı seçkilərə ruh yüksəkliyi ilə gedir

Respublikamızın hər bir regionu kimi, Masallı da inkişaf edir, ildən-ilə daha abad və gözəl olur. Arxada qalan 2019-cu il də rayon üçün uğurlu olmuş, iqtisadiyyatında nəzərəçarpacaq irəliləyişlər əldə edilmiş, sosial əhəmiyyətli obyektlər tikilib istifadəyə verilmişdir. Sabaha inamla addımlayan Masallı əhalisi də Milli Məclisə fevralın 9-da keçiriləcək seçkilərə fəal hazırlaşır.



Bunu namizədlərlə keçirilən görüşlər də təsdiqləyir. Rayonda 70 saylı Masallı şəhər və 71 saylı Masallı kənd dairə seçki komissiyaları fəaliyyət göstərir. 70 saylı DSK üzrə 43 məntəqədə 40 min 24 nəfər seçicinin siyahısı dəqiqləşdirilərək məntəqələrin girəcəyində vurulmuş lövhələrdə öz əksini tapmışdır. Dairə üzrə qeydə alınan 10 namizəd parlamentə mandat qazanmaq uğrunda mübarizə aparır. Hazırda onlar dairənin əhatə etdiyi qəsəbə və kəndlərdə seçicilərlə görüşlər keçirirlər. Namizədlərdən 1 nəfəri DİP, 1 nəfəri YAP, 1 nəfəri təşəbbüs qrupu tərəfindən, 7-si isə namizədliyini özü irəli sürmüşdür. Hər bir namizədin portreti, platforması, məqsəd və məramnaməsini əks etdirən məlumat xarakterli plakatlar məntəqə seçki komissiyalarının ərazisində əhalinin gur olduğu yerlərdə lövhələrə vurulmuşdur. Seçkilərin gedişini izləmək üçün 634 nəfər müşahidəçi DSK-da qeydiyyatdan keçmişdir.

71 saylı DSK-nın sədri Loğman Şahbazov dedi ki, dairə üzrə 42 seçki məntəqəsi fəaliyyət göstərir. Bütün məntəqələr seçkiyə hazır vəziyyətə gətirilmişdir. Dairə üzrə seçicilərin ümumi sayı 35 min 276 nəfərdir. İlk dəfə 9 nəfər səs verəcək. Ən yaşlı seçicimiz Qızılağac kənd sakini 101 yaşlı Ağanənə Abbasovadır. Dairə üzrə qeydə alınmış 10 nəfər deputat mandatı uğrunda mübarizə aparır. Onlar təyin edilmiş vaxtlarda qəsəbə və kəndlərdə seçicilərlə görüşlər keçirirlər. Namizədlərin hamısına bərabər şərait yaradılmışdır. Seçkilərin gedişini Azərbaycan Demokratik Maarifçilik Partiyasından 27, Ana Vətən Patiyasından 40, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasından 37, Böyük Qurtuluş Partiyasından 37, Demokratik İslahatlar Partiyasından 36, Milli Dirçəliş Hərəkatı Partiyasından 29, Müsavat Partiyasından 2, Vətəndaş Həmrəyliyi Partiyasından 26, Vəhdət Partiyasından 28, Yeni Azərbaycan Partiyasından 43, QHT-lərdən 9, öz təşəbbüsü ilə 163 nəfər müşahidəçi izləyəcəkdir. 5 məntəqədə veb-kamera quraşdırılmışdır.

Hər iki dairə üzrə seçicilərin məlumatlandırılması, bildirişlərin paylanması artıq başa çatdırılmışdır. ATƏT-in uzunmüddətli müşahidəçilərindən Caner Mustafa və Culyan Nandi bu günlərdə Masallıdakı hər iki dairədə olmuş, seçkilərə hazırlığın vəziyyəti ilə maraqlanmışlar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## MSK dairə seçki komissiyalarının IT mütəxəssisləri üçün seminarlara başlayıb

Fevralın 9-da keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) müxtəlif statuslu seçki iştirakçılarının maarifləndirilməsi istiqamətində irimiqyaslı tədbirləri davam edir.






AZƏRTAC xəbər verir ki, seçki günü məlumatlarının operativ şəkildə ictimailəşdirilməsi və şəffaflığın daha yüksək səviyyədə təmin edilməsi məqsədilə komissiya fevralın 1-dən etibarən növbəti əhəmiyyətli layihəyə - dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün seminarlara başlayıb. Seminarların başlıca hədəfi IT mütəxəssislərinin Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin ümumi fəaliyyəti və yenilənərək daha da təkmilləşdirilən imkanları barədə aydın və ətraflı məlumatlandırmaq, habelə sistem üzərindən tətbiq olunan proqram təminatlarından praktiki istifadə etməklə mütəxəssisləri maraqlandıran sualları əyani şəkildə izah etməkdən ibarətdir.

Layihənin mahiyyətindən irəli gələrək seminarlar çərçivəsində IT mütəxəssislərinə Milli Məclisə seçkilər günü seçicilərin fəallığı ilə yanaşı, səsvermənin nəticələri ilə bağlı protokol məlumatlarının Mərkəzi Seçki Komissiyasına birbaşa ötürülməsi üçün xüsusi proqram modullarından praktiki məşğələlərlə test rejimində işləmək imkanı da yaradılır.

IT mütəxəssislərinin iş təcrübələri, peşəkarlıq vərdişləri və praktiki biliklərinin gücləndirilməsi istiqamətində mühüm rol oynayan seminarlar işini fevralın 2-də yekunlaşdıracaq.

### QƏRAR № 19/113

### Mərkəzi Seçki Komissiyasının 23 yanvar 2020-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 23 yanvar 2020-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

***01.02.2020***

### QƏRAR № 19/114

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Müasir Müsavat Partiyasının səlahiyyətli nümayəndəsinin qeydiyyatının ləğv edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə Müasir Müsavat Partiyası 2020-ci il yanvarın 31-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək komissiyanın 21 dekabr 2019-cu il tarixli 20/95 saylı qərarı ilə partiyanın səlahiyyətli nümayəndəsi kimi qeydə alınmış Nağıyeva Nərgiz Əli qızının qeydiyyatının ləğv olunmasını xahiş etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müraciətə baxaraq müəyyən etmişdir ki, Müasir Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi N.Ə.Nağıyevanın qeydiyyatı ləğv olunmalı və "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında Təlimat"ın 3.3-cü bəndinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən ona verimiş lövhəcik etibarsız hesab edilməlidir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22-ci, 28.2-ci, 28.4-cü və 52.5-ci maddələrinə və qeyd edilən Təlimatın 3.3-cü bəndinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə Müasir Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Nağıyeva Nərgiz Əli qızının qeydiyyatı ləğv olunsun və Mərkəzi Seçki Komissiyası tərəfindən ona verimiş lövhəcik etibarsız hesab edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

***01.02.2020***

### QƏRAR № 19/115

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 yanvar 2020-ci il tarixli 42 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Aslanova Zəhra Əliağa qızı 30 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsində seçkiqabağı təşviqatın aparılması qaydalarının pozulduğunu bildirmiş və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizəd Z.Ə.Aslanova müraciətində bildirmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürmüşdür. Seçkiqabağı təşviqat dövründə həmin seçki dairəsi üzrə qeydə alınmış digər namizəd Sadiq Qurbanovun qanunazidd təşviqatı tərəfdarları tərəfindən aparılmışdır. Ərizəçi bununla bağlı şikayətə bir ədəd elektron məlumat daşıyıcı əlavə etmişdir.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, ona araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Qeydə alınmış namizəd Z.Ə.Aslanova tərəfindən təqdim edilmiş elektron məlumat daşıyıcısında olan video görüntüyə Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən Mətbuat qrupunun təmsilçiləri cəlb edilməklə birgə baxış keçirilmiş və müəyyən edilmişdir ki, 2020-ci il yanvarın 25-də Siyəzən rayonu Təhsil Şöbəsinin akt zalında keçirilmiş tədbirdə Yeni Azərbaycan Partiyası (YAP) Siyəzən rayon təşkilatının sədri, eyni zamanda Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru Heydərov Etibar Murad oğlu tərəfindən 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə həmin partiya tərəfindən namizədliyi irəli sürülmüş və qeydə alınmış namizəd Qurbanov Sadiq Haqverdi oğlunun təşviqatı Seçki Məcəlləsinin tələbləri pozulmaqla aparılmışdır. Həmçinin müəyyən edilmişdir ki, həmin tədbirdə YAP-ın səlahiyyətli nümayəndəsi və namizəd S.H.Qurbanov iştirak etməmişlər.

Seçki Məcəlləsinin 112-1.11.2-ci və 113.1-ci maddələrinə əsasən namizəd, qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu bu Məcəllənin tələblərini pozduğu hallarda, müvafiq seçki komissiyası seçicilərə məlumat vermək şərti ilə həmin namizədə, qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna, referendum üzrə təşviqat qrupuna kütləvi informasiya vasitələri ilə xəbərdarlıq edir.

Qeyd edilənlərə əsasən şikayətin təmin edilməsi və Seçki Məcəlləsinin tələblərinin pozulmasına görə E.M.Heydərov barəsində qanunla müəyyən olunmuş qaydada tədbir görülməsi üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 112-1.11.2-ci, 113.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Aslanova Zəhra Əliağa qızının 30 yanvar 2020-ci il tarixli 42 saylı müraciəti təmin edilsin, YAP Siyəzən rayon təşkilatının sədri Heydərov Etibar Murad oğluna xəbərdarlıq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

***01.02.2020***

### QƏRAR № 19/116

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 yanvar 2020-ci il tarixli 41, 43, 44, 45, 47 və 48 saylı müraciətlərə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 112 saylı Qax seçki dairəsi üzrə qeydə alınmış namizədlər Poladova Dilşad Zəkəriyyə qızı və Əfəndi Mahir Qalib oğlu, seçicilər Dərvişli Zaur Zaxar oğlu, Raziyev Hüseyn Babaəfəndi oğlu, Abidov Elbrus Akif oğlu və Verdiyev Nicat Rasim oğlu 2020-ci il yanvarın 30-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi üzrə qeydə alınmış namizəd Şahidov Əhməd Şair oğlu tərəfindən seçkiqabağı təşviqatın aparılması zamanı qanun pozuntularının baş verdiyini bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Seçkiqabağı təşviqatın aparılması qaydalarının pozulması ilə daxil olmuş müraciətlər eyni məzmunlu olduğundan bir icraatda birləşdirilmişdir.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Ərizəçilər müraciətlərində bildirmişlər ki, 2020-ci il yanvarın 18-də 112 saylı Qax seçki dairəsi üzrə qeydə alınmış namizəd Ə.Ş.Şahidov tərəfindən aparılan seçkiqabağı təşviqat kampaniyası zamanı qanun pozuntularına yol verilmişdir. Belə ki, Qax şəhərində yerləşən Şəhidlər xiyabanında Ə.Ş.Şahidov bir qrup hərbçilər qarşısında qanunsuz olaraq seçkiqabağı təşviqat aparmış və yanvarın 19-dan bunu sosial şəbəkədə ictimailəşdirmişdir. Ərizəçilərdən qeydə alınmış namizəd M.Q.Əfəndi şikayətinə bir ədəd elektron məlumat daşıyıcı əlavə etmişdir.

Araşdırma prosesində ərizəçilərlə əlaqə saxlanılmış, onlara araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Qeydə alınmış namizədlər D.Z.Poladova və M.Q.Əfəndi seçkiqabağı təşviqatlarının aparılması ilə əlaqədar, ərizəçi olan digər seçicilər isə araşdırmanın obyektiv aparılmasına inandıqlarını əsas gətirərək komissiyanın iclasında iştirak edə bilməyəcəklərini qeyd etmişlər.

Araşdırma ilə əlaqədar müvafiq sənədlər və izahatlar dairə seçki komissiyasından tələb edilərək nəzərdən keçirilmiş, təqdim edilmiş elektron məlumat daşıyıcısında olan video görüntüyə Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən Mətbuat qrupunun təmsilçiləri cəlb edilməklə birgə baxış keçirilmiş və müəyyən edilmişdir ki, Ə.Ş.Şahidov hərbçilərin iştirakı ilə həqiqətən qanunsuz olaraq seçkiqabağı təşviqat aparmışdır. Bu hal Şəhidlər xiyabanının bağbanı Ü.M.Orucovun və Qax Kommunal Müəssisələri Kombinatının işıqlandırma sahəsinin rəisi N.A.Abdullayevin yazılı izahatları ilə təsdiq olunur.

Seçki Məcəlləsinin 74.4.2-ci maddəsinin tələbinə görə seçkiqabağı təşviqatın aparılması hərbi qulluqçulara da qadağan edilir. Həmin Məcəllənin 86.6-cı maddəsinə əsasən qeydə alınmış namizədlər, siyası partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri hərbi hissələrin yerləşdiyi ərazilərin hüdudlarında hərbi qulluqda sayılan seçicilərlə görüşlərini hərbi hissə komandirinin dairə seçki komissiyası ilə birlikdə belə görüşün keçirilməsini təyin etdikləri günə azı 3 gün qalmış müvafiq seçki dairəsi üzrə bütün namizədlərin, namizədləri qeydə alınmış bütün siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının mütləq dəvət edilməsi və ya onlara xəbər verilməsi şərti ilə təşkil edə bilərlər.

Seçki Məcəlləsinin 113.1-ci maddəsinin tələbinə görə namizəd, qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu bu Məcəllənin tələblərini pozduğu hallarda müvafiq seçki komissiyası seçicilərə məlumat vermək şərti ilə həmin namizədə, qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna, referendum üzrə təşviqat qrupuna kütləvi informasiya vasitələri ilə xəbərdarlıq edir.

Beləliklə, seçkiqabağı təşviqatın aparılması qaydalarının pozulmasına yol verilməsi halı təsdiqini tapmış və qeydə alınmış namizəd Ə.Ş.Şahidov barəsində qanunla müəyyən olunmuş qaydada tədbir görülməsi üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 74.4.2-ci, 86.6-cı və 112-ci, 112-1-ci, 113.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 112 saylı Qax seçki dairəsi üzrə qeydə alınmış namizədlər Poladova Dilşad Zəkəriyyə qızı və Əfəndi Mahir Qalib oğlu, seçicilər Dərvişli Zaur Zaxar oğlu və digərlərinin 41, 43, 44, 45, 47 və 48 saylı müraciətləri təmin edilsin, qeydə alınmış namizəd Şahidov Əhməd Şair oğluna xəbərdarlıq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

***01.02.2020***

# Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının I Forumu keçirilib



Fevralın 1-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının I Forumu keçirilib.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə keçirilən forumun əsas məqsədi gənc müəllimlərin ümumrespublika səviyyəsində toplantısı vasitəsilə onların gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək və əməkdaşlıq şəbəkəsini genişləndirməkdir.

Tədbirdən əvvəl iştirakçılar Fəxri xiyabana gedərək Ümummilli Lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə əklil qoyublar.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə güllər qoyulub. Forumda Azərbaycan Respublikası Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Təhsil naziri Ceyhun Bayramov, nazirlik yanında İctimai Şuranın üzvləri, Gənclər və İdman Nazirliyi, eləcə də Gənclər Fondunun əməkdaşları, pedaqoji ixtisaslı ali təhsil müəssisələrinin rektorları, media nümayəndələri və gənc müəllimlər iştirak ediblər.

Forum Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Daha sonra Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının fəaliyyətinə dair videoçarx nümayiş olunub. Bakı şəhəri 20 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi, 25 yaşlı Xəyalə Hüseynli çıxış edərək müəllim peşəsinin dəyərlərindən söz açıb.

Təhsil naziri Ceyhun Bayramov forumda çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə müəllim əməyinin stimullaşdırılması və məktəb tikintisi istiqamətində mühüm təşəbbüslər həyata keçirildiyini vurğulayıb. O, müəllim olmaq istəyənlərin sayının ilbəil artdığını xüsusi qeyd edib. Cəmiyyətdə müəllimin əvəzsiz rolundan danışan nazirin sözlərinə görə, gənc müəllimlər təşəbbüskar olmalı, öz üzərində işləməli, peşəkarlıqlarını artırmalıdırlar.

Nazir Ceyhun Bayramov Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində çıxışını xüsusi xatırladaraq qeyd edib ki, ölkə başçısının tövsiyələrinə uyğun olaraq ümumi təhsil müəssisələrində tərbiyə işinin təkmilləşdirilməsi, təhsilalanların milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması müəllimlərin qarşısında duran ən əsas iş prinsipidir. Müəllimlər hər zaman şəxsi nümunələri ilə fərqlənməlidirlər.

Assosiasiyanın fəaliyyətini qiymətləndirən Təhsil naziri bu qurumun gənc müəllimlərin peşəkarlıq potensialının artırılması istiqamətində müəllimlərə dəstək olacağına ümidvar olduğunu deyib.

Nazir çıxışının sonunda gənc müəllimlərin hər birini 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra çıxış edən Corc Vaşinqton Universitetinin Təhsil və insan inkişafı fakültəsinin dekanı Maykl Foyer tədbirin əhəmiyyətini vurğulayıb, gənclərin birgə fəaliyyətinin təşkilini qiymətləndirib.

Tədbirdə AGMA loqosunun təqdimatı olub və qalib müəllif, assosiasiyanın üzvü Aygün Abdulova mükafatlandırılıb. Mükafatı Təhsil naziri Ceyhun Bayramov təqdim edib.

Tədbir bədii hissə ilə davam etdirilib. Sonra panel müzakirələr keçirilib.

# Müdafiə naziri Dalğıc Təlim Poliqonunun açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Hərbi Dəniz Qüvvələrinin (HDQ) şəxsi heyətinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti HDQ-nin hərbi hissələrindən birində yeni inşa edilən infrastruktur obyektlərinin açılışında iştirak edib.

Müdafiə naziri hərbi hissənin ərazisindəki bina, qurğu və avadanlıqlara baxış keçirib.

Sonra Müdafiə naziri yenidən bərpa olunmuş müasir standartlara cavab verən Dalğıc Təlim Poliqonunda olub. Məruzə olunub ki, poliqon xüsusi təyinatlıların dalğıc hazırlığı üzrə normativləri və sualtı döyüşün aparılması vərdişlərini məşq etdirmələri üçün nəzərdə tutulub. İnfrastruktura baxış keçirən Müdafiə naziri ərazidə yenidən qurulan hovuz, gəmi və qayıq avadanlıqları kompleksi, barokamera otağı, dalğıc cihazlarına texniki qulluq emalatxanası, suyadalma üçün universal qüllə və müxtəlif məqsədli sinif otaqlarında yaradılmış şəraitlə də tanış olub.

Ərazidə yeni inşa edilən müxtəlif məqsədli çoxsaylı maneələrdən ibarət maneə zolağı hərbi qulluqçuların döyüş və fiziki hazırlığı, eləcə də peşə bacarıqlarının artırılması üçün nəzərdə tutulub.

Xüsusi təyinatlıların nümunəvi çıxışlarını izləyən Müdafiə naziri tapşırıqların daha keyfiyyətli icra edilməsi ilə bağlı komandanlığa müvafiq göstərişlər verib.

# Türkiyə və Azərbaycan qardaşlığının növbəti bariz nümunəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iradəsinə, Azərbaycan və Türkiyə arasındakı qardaşlıq əlaqələrinin ruhuna uyğun olaraq, Türkiyəyə məxsus təyyarə ilə bu il fevralın 1-də Azərbaycan vətəndaşları Türkiyə vətəndaşları ilə birlikdə Çin Xalq Respublikasının Uxan şəhərindən təxliyə ediliblər.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Məlumatda deyilir: “Təyyarənin bu gün axşam saatlarında Türkiyə ərazisinə enməsi gözlənilir. Bununla əlaqədar olaraq qardaş Türkiyə Respublikasına təşəkkürümüzü bildiririk. Bu, Azərbaycan və Türkiyə qardaşlığının növbəti bariz nümunəsidir”.

Təxliyə olunan vətəndaşlarımız uçuşdan öncə həkim müayinəsindən keçiblər, onların sağlamlıq durumu qənaətbəxşdir. Vətəndaşlarımız könüllü əsasda 2 həftəlik müddətdə Türkiyə ərazisində karantin vəziyyətində saxlanılacaq, daha sonra Azərbaycana qayıdacaqlar.

Vətəndaşlarımıza göstərdikləri dəstəyə görə, həmçinin Çin Xalq Respublikası Hökumətinə də təşəkkürümüzü bildirir, bu müvəqqəti çətin günlərdə dost Çin xalqı və dövləti ilə həmrəylimizi ifadə edirik.

# Ən dərin islahatlar ili

**Prezident İlham Əliyevin ötən il reallaşan böyük sosial paketi, kadr və struktur yeniliyi Azərbaycanı dünyada ən islahatçı 20 ölkədən birinə çevirdi**

2019-cu il Azərbaycanın müstəqillik tarixində ən dərin islahatlar ili kimi yadda qaldı. Həyata keçrilən sosial-iqtisadi, struktur və kadr islahatları çox yüksək qiymətləndirildi. Dünya Bankının “Doing Business” hesabatında 20 ən islahatçı ölkədən biri olan Azərbaycanda ötən il bütün istiqamətlərdə - sosial, iqtisadi, idarəetmə və kadr islahatları reallaşdı.

Prezident İlham Əliyev də ötən ilin sosial-iqtisadi uğurlarını dəyərləndirərkən 2019-cu ili dərin islahatlar ili adlandırdı və qeyd etdi ki, bu islahatlar inkişafın bundan sonra daha da uğurlu olacağına imkan verəcək, o cümlədən iqtisadi artım daha da böyük rəqəmlərlə ölçüləcək.

## 4,2 milyon nəfər, 2,3 milyard manat vəsait

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etməkdən, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaqdan, vətəndaşların sosial rifah halını daim yaxşılaşdırmaqdan ibarətdir. İlk olaraq ötənilki sosial islahatlara nəzər yetirək.

Prezident İlham Əliyevin böyük sosial islahatlar paketi çərçivəsində 2019-cu ildə həyata keçirilən sosial paket 4,2 milyon nəfəri əhatə etdi. Bu məqsədlə 2,3 milyard manat sərf edildi. Bu paketlərin reallaşması nəticəsində - *1 milyon 350 min insanın əməkhaqqı ciddi şəkildə artdı, minimum əməkhaqqı 2 dəfə, pensiya 70 faiz artdı, müavinətlər 50 faiz yüksəldi, minimum pensiya 200 manat oldu, şəhid ailələrinə və müharibə əlillərinə 934 mənzil təqdim edildi, əlilliyi olan şəxslərə 600 avtomobil verildi, 12 min şəhidin 18 min vərəsəsinə 11 min manat birdəfəlik ödəmələr verildi, ünvanlı sosial yardım artaraq 209 manata yüksəldi.*

Dövlət başçısının ötən ilin ilk aylarında təqdim etdiyi birinci sosial islahatlar paketi nəticəsində minimum əməkhaqqı martın 1-dən 40 faizədək artırılaraq 130 manatdan 180, pensiyanın minimum məbləği isə 40 faizədək artırılaraq 116 manatdan 160 manata çatdırıldı. Həmin artımlardan 830 min insan yararlandı.

Həmçinin aprelin 1-dən 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər, 9 kateqoriyaya aid şəxslər üzrə isə Prezidentin aylıq təqaüdlərinin məbləği orta hesabla 100 faiz artırıldı. Sosial təminat sisteminin əhatə dairəsi daha da genişləndirildi.

Sayı 80 minədək olan müharibə veteranlarına aylıq təqaüdlər təsis olundu. Sosial müavinət və təqaüd artımları, təsis olunan yeni təqaüdlər 300 mini əlil olan şəxslərdən ibarət 600 minədək vətəndaşın rifahını yaxşılaşdırdı. Bunlardan əlavə, məcburi köçkünlərin aylıq müavinətində 50 faiz, tələbələrin təqaüdlərində əhəmiyyətli artımlar edildi. Ümumilikdə ötən ilin ilk rübündə reallaşdırılan və artımların təmin edilməsi üçün əlavə olaraq dövlətin illik 1,9 milyard manat maliyyə yükünü üzərinə götürdüyü birinci sosial paket 3 milyona yaxın insanın rifahına mühüm dəstək oldu.

Prezident İlham Əliyevin ikinci sosial paketini əhatə edən 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü isə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində inqilabi addımların ardıcıl xarakter aldığını göstərir. Bu sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin müxtəlif sahələrdə çalışanların maaşlarının artırılması təmin olunub.

“Minimum aylıq əməkhaqqının artırılması haqqında” sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği gələn ayın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırıldı. Bununla da cari ildə reallaşan iki sosial paket nəticəsində Azərbaycanda minimum əməkhaqqının məbləği 93 faiz artırılmış oldu. Ölkəmizdə ilk dəfə olaraq minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) üstələdi. Yəni minimum səviyyədə olan əməkhaqqı belə yaşayış minimumundan 70 manat və ya 40 faiz çox oldu. Minimum əməkhaqqının bu artımı 950 min nəfərin maaşlarının artımına səbəb oldu ki, onlardan da 600 mini dövlət, 350 mini qeyri-dövlət sektorunda çalışanlardır.

İmzalanan digər sərəncamlarla eyni zamanda dövlət sektorunda işləyən müəllimlər, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanlar, hərbi qulluqçular, hüquq mühafizə orqanları əməkdaşları, həm ümumi, həm də xüsusi növ üzrə dövlət qulluqçuları, hakimlər və digərlərindən ibarət 400 min nəfərin əməkhaqları da ötən il sentyabrın 1-dən 20-100 faiz səviyyəsində artırıldı. Ümumilikdə, ikinci sosial paket 1 milyon 350 min nəfəri əhatə etdi ki, onlardan da 1 milyonu dövlət, qalanları özəl sektorda işləyənlər idi.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da birbaşa iştirakı ilə həyata keçirilən sosial islahatlar Azərbaycan dövlətinin fövqündə vətəndaşımızın dayandığını bir daha təsdiqlədi. Şəhid ailələri, müharibə əlillərinə yeni mənzillər və avtomobillər verildi.

Ölkədə mühüm yerli və beynəlxalq layihələr reallaşdı. Aparılmış islahatlar çox geniş sosial paketi həyata keçirməyə imkan yaratdı. Azərbaycan dövləti sovet vaxtından qalmış əmanətlərin qaytarılmasında da vətəndaşlar üçün ən məqbul prinsip tətbiq etdi və bu sahədə də MDB məkanında birinci oldu.

## Kadr islahatları, gəncləşmə, yeni təfəkkürlü insanların irəli çəkilməsi

Prezidentin struktur, kadr islahatları təkcə ölkə əhalisi deyil, beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildi. Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına daxil etdi. Bu da onu göstərir ki, ölkəmizdə aparılan köklü islahatlar aparıcı beynəlxalq qurumlar tərəfindən də təqdirlə qəbul edilir.

Cənab İlham Əliyev isə kadr islahatlarını belə qiymətləndirdi: “İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu, təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu, təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik. Ancaq onu da bildirməliyəm ki, bu, kampaniya xarakteri almamalıdır”.

Prezident dedi ki, islahatlara alternativ yoxdur və kadr islahatları labüddür, qaçılmazdır. Əlbəttə ki, dövlət başçısının atdığı bu addımlar daha çevik idarəetmə formasının yaradılması istiqamətində görülən işlərin davamı idi. Çünki bu gün ölkəmizdə uğurlu inkişaf siyasəti bütün sahələrdə nailiyyətlər əldə edilməsinə zəmin yaradır və bu tərəqqinin geniş vüsət almasında kadr islahatlarının da rolu böyükdür.

Dövlət idarəçiliyi sistemini daim təkmilləşdirən və bu istiqamətdə düşünülmüş addımlar atan cənab İlham Əliyev bu qərarları verərkən, ilk növbədə, xalqın və dövlətin maraqlarını, milli mənafeləri nəzərə alır. Prezident hesab edir ki, XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza atmaq qeyri-mümkündür. Yeni vəzifəyə təyin edilən gənc kadrlar savadlı, bilikli olmaqla yanaşı, ilk növbədə, vətənə bağlı, hər hansı bir xarici təsirdən azad və vətənpərvər olmalıdırlar ki, ölkənin inkişafı üçün öz səylərini göstərə bilsinlər. Bu, ilk növbədə, dövlət rəhbərinin ölkədə müxtəlif sferaların inkişafında gənclərə böyük etimad göstərməsinin əyani təzahürüdür.

İslahatçı Prezidentin verdiyi qərarlar Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verir. İslahatlara şahidlik edən ölkə ictimaiyyəti də dövlət idarəetmə sistemində həyata keçirilən prosesləri, xüsusən də gənc kadrlara rəhbər korpusda yüksək etimadın göstərilməsini təqdirəlayiq hal kimi qiymətləndirir.

## Azərbaycan hazırda dünyanın ən islahatçı və sabit ölkələri arasındadır

Bu gün Azərbaycan sosial rifah dövlətinə çevrilib. Çünki iqtisadiyyatın və büdcənin artan imkanları əhalinin rifahının yaxşılaşmasına yönəldilir. İqtisadi uğurlar, artan imkanlar, yüksələn valyuta ehtiyatları buna real zəmin yaradır.

Azərbaycan hazırda dünyanın ən islahatçı və sabit ölkələri arasındadır. Ölkənin 51 milyard dollar olan strateji valyuta ehtiyatları ÜDM-in 110 faizini təşkil etdiyi halda, xarici borcumuz ÜDM-in 17 faizinə bərabərdir.

2019-cu ildə Azərbaycanda ÜDM-in artımı son beş ildə rekord həddə - 2,2 faiz artıb, qeyri-neft ÜDM-in istehsalı isə 3,5 faiz, yəni dünya üzrə iqtisadi artım tempindən daha yuxarı olub.

Ötən il ümumilikdə ixracat üçün uğurlu olub və gömrük məlumatlarının təhlili göstərir ki, ölkədən 19,6 milyard dollar dəyərində ixrac həyata keçirilib. Nəticədə ticarət dövriyyəsində 6 milyard dollar dəyərində müsbət saldo yaranıb. Xüsusən də aparılan uğurlu islahatlar nəticəsində nəinki 2019-cu il, ondan əvvəlki illər də qeyri-neft ixracı üçün uğurlu olub. Belə ki, 2017-ci ildə qeyri-neft ixracımız 24 faiz, 2018-ci ildə 10 faiz, 2019-cu ildə isə 14 faiz artıb. Qeyri-neft ixracımız 2 milyard dollara yaxınlaşıb.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil cənab İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Bugünün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır və 2020-ci il ölkəmiz üçün uğurlu illərdən biri olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Azərbaycan gəncliyi güclü dövlət qayğısı ilə əhatə olunub

*Əvvəli 1-ci səh.*

2011-ci ildə “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramının qəbul edilməsi isə gənclərə etimad və münasibətin növbəti əyani təzahürü oldu.

Hazırda 2017-2021-ci illəri əhatə edən növbəti proqram icra olunur. Prezident İlham Əliyev 26 yanvar 2015-ci il tarixli sərəncamı ilə gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nı da təsdiq etdi.

## İlham Əliyev gənclərin hamisidir

Bütün bunların nəticəsidir ki, gənclik öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirir. Belə ki, gənc nəsil daim respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir. Minlərlə gənc beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi uğurla təmsil edir, idmançılarımızın qələbələri sayəsində Azərbaycan bayrağı ən mötəbər idman yarışlarında yüksəlir. Gənclərimiz mədəniyyətlərarası dialoqun aparılmasında, ölkəmizin beynəlxalq əməkdaşlığının inkişafında fəal rol oynayırlar. Bunun nəticəsində müxtəlif dövlətlərdə və beynəlxalq qurumlarda ölkəmiz daha yaxından tanınmış, onun tarixi, mədəniyyəti və bugünü haqqında geniş məlumatlar çatdırılmışdır. Xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclər və məzunlar, orada çalışan gənc mütəxəssislər Azərbaycan diasporunun inkişafına və lobbiçilik fəaliyyətinə layiqli töhfələr verirlər. Fevralın 9-da keçiriləcək parlament seçkilərində də namizədlərin böyük bir qismini gənclər təşkil edir.

Ötən ilin fevralında keçirilən Gənclər Gününə həsr olunmuş respublika toplantısı Azərbaycanda həyata keçirilən mütərəqqi dövlət gənclər siyasətinin növbəti təsdiqi oldu. Prezident İlham Əliyev tədbir boyu gənclərlə bir yerdə oldu, nitq söyləyərək gənclərə tövsiyələrini verdi, həm də onları dinlədi. Azərbaycan gənclərinin müstəqillik dövründə yaşadıqlarını, ölkəmizin ümumi inkişafına böyük töhfə verdiklərini deyən Prezident İlham Əliyev gənclərə öz tövsiyələrini də söylədi: *“Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər”.*

Dünyada ciddi böhranların, münaqişələrin, müharibələrin getdiyi bir dönəmdə Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə sabitlik məkanı kimi inkişaf edir. Gənclər də bu imkandan yetərincə yararlanaraq cəmiyyətdə böyük uğurlar qazanırlar. Ona görə də əminliklə söyləyə bilərik ki, dövlət başçısı Azərbaycan gənclərinin böyük hamisidir. Gənclər də öz növbəsində hər zaman İlham Əliyev siyasətinin dəstəkçisi və bu siyasətin davamçılarıdırlar. Onlar əmindirlər ki, Azərbaycan məhz İlham Əliyevin rəhbərliyi ilə daha güclü inkişafına qovuşacaq. Buna görə milli və dövlətçilik təəssübkeşliyini rəhbər tutan gənclər daim Prezidentin ətrafında sıx səfərbər olacaqlar.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Atəşkəs rejimi 24 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.



## 2020-ci il "Könüllülər ili"dir



# İşimizi ASANlaşdıran könül adamları





Əvvəli 1-ci səh.

Belə könüllülərdən biri Azərbaycan Texniki Universitetin 4-cü kurs tələbəsi İsa Əliyevdir. İsa iki aydır ASAN könüllüsü kimi fəaliyyət göstərir. İşini sevir, çox da həvəslidir. Deyir, könüllü kimi təzə çalışmağa başlayanda bir az çətinliklər yaşayıb, amma qısa zamanda problemləri aradan qaldırıb. Artıq vətəndaşlarla rahat ünsiyyət qura, onları düzgün istiqamətləndirə bilir: "Vətəndaşlara təmənnasız xidmət etməklə fəxr edirik. Bizim əsas meyarımız vətəndaşların məmnunluğunu təmin etmək, gülərüz və səbirli olmaqdır".

Könüllü Nərgiz Əliyeva Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər fakültəsində təhsil alır. Yanvarın 10-da könüllü kimi fəaliyyətə başlayıb. İnanır ki, könüllü kimi fəaliyyəti onun gələcək karyerasına və şəxsi keyfiyyətlərinin inkişafına töhfə verəcək. Amalı burada işçi kimi fəaliyyətini davam etdirməkdir.

Digər könüllülərdən fərqli olaraq Lalə Bəkirli tələbə deyil. O, Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirib, dövlət qulluğunda işə qəbulla bağlı imtahandan da keçib. İş həyatına "ASAN xidmət" mərkəzində könüllülük fəaliyyəti ilə başlamaq qərarına gəlib: "Əslində mən dövlət orqanlarında çalışmaq istəyirəm. Ona görə düşündüm və qərar verdim ki, ilk addımlarımı burda atmağa başlayım. Dekabrın 15-dən burada könüllü kimi fəaliyyət göstərirəm. İnsanlarla ünsiyyət, dəqiqlik, məsuliyyət, düzgün davranış qaydalarını öyrənirik. Burada mühit fərqlidir. Könüllülərlə işçilər arasında heç bir fərq qoyulmur. İnsanların hər hansı probleminin həllində yardımçı olmaq, yaşlı insanlar üçün ərizə doldurmaq bizə xoşdur. Amma düşünürəm, tələbə kimi könüllülük fəaliyyətinə başlamaq daha yaxşıdır. Onda öyrənmək üçün daha çox vaxt qazanmış olursan. Ona görə də bütün gəncləri könüllü olmağa dəvət edirəm".

Könüllülərlə söhbət etdiyimiz zaman bir qrup gəncin masa ətrafında toplaşıb söhbət etməyi diqqətimizi çəkir. Demə, bu gənclər yeni könüllülərdir. Onlar yaxın vaxtlarda "ASAN xidmət" mərkəzlərində könüllü kimi fəaliyyətə başlayacaqlar.

Daim könüllülərlə işləyən, onları yönləndirən, söhbət edən gənc xanıma yaxınlaşırıq. Bu, Türkan Şahvələdlidir. Türkan 2016-cı ildə 1 saylı "ASAN xidmət" Mərkəzində könüllü kimi fəaliyyətə başlayıb. Hazırda isə burada könüllülər üzrə məsul şəxs kimi çalışır: "Müşahidə edirəm ki, vətəndaşlarla gülərüz danışanda onlar daha razı qalırlar. Bu, mənə nəinki işimdə kömək etdi, həyat təcrübəmə çevrildi. Üstəlik, ailəmin də etimadını qazandım. Universitetə qəbul balım bir az aşağı olduğu üçün valideynlərim mənə sanki uğursuz övlad kimi baxırdılar. Tələbəlik illərimdə könüllü kimi müxtəlif layihələrdə, düşərgələrdə iştirak etdim, bu da özümü, şəxsi keyfiyyətlərimi, karyeramı formalaşdırmağa kömək etdi. Sonradan layihələrdə təkcə iştirakçı yox, təşkilatçı oldum. Valideynlərim də gördülər ki, tək özümü yox, müəyyən qrupu idarə etmək bacarığım var. Əvvəl evə gec getməyə qoymadıqları halda regionlara səfər etməyə belə icazə verdilər. Yəni könüllülük mənə həm də qız övladı olaraq stereotipləri qırmağa kömək etdi. "ASAN xidmət" mənim üçün sadəcə iş yeri deyil, yaşamımı dəyişən, həyatıma böyük nöqtələr, özəklər qoyan orqandır. Çox xoşdur ki, könüllü kimi çalışmağa başladığım orqanda 4 il ərzində qazandığım bilikləri, təcrübələri indi digər könüllülərə ötürürəm".



İsa Əliyev



Nərgiz Əliyeva



Lalə Bəkirli



Türkan Şahvələdli



Sahil Məmmədli



Əsli İbrahimli

## "Könüllülər ili"ndən ən çox qazanan elə könüllülər olacaq

Bəli, bu gün "ASAN xidmət"də könüllülük fəaliyyətini təşkil edən insanlar özləri də bir vaxtlar könüllü olublar, bu sahədə formalaşıblar. İndi isə könüllülük hərəkatının inkişafı üçün müxtəlif layihələr icra edirlər. "Könüllü kimi işləməyin perspektivi nədir", - sualının cavabı da bax elə budur. Biz də elə bir vaxtlar könüllü kimi çalışan, indi isə müxtəlif layihələrə rəhbərlik edən gənclərlə tanış olmaq üçün onların toplaşdığı, çalışdığı məkana getdik.

İlk olaraq Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun müdiri Sahil Məmmədli ilə söhbətləşdik. Könüllülüyün alturist və özlüyündə prososial fəaliyyət olduğunu söyləyən S.Məmmədlinin fikrincə, həmin fəaliyyətə qoşulan gənclər üçün ilk növbədə məsuliyyətli vətəndaşlıq hissi aşılanır. Yəni gənclərimiz öz ekoloji, mədəni, hüquqi, ictimai məsuliyyətlərini başa düşürlər. Bu fəaliyyət özlüyündə gələcək nəsillərin yetişdirilməsinə, formalaşdırılmasına böyük təsir göstərir. Könüllülük fəaliyyətinə qoşulan gənclər gələcəkdə ixtisaslı və peşəkar kadr kimi formalaşırlar: "İxtisaslaşmış könüllülük təsisatlarının işinə qoşulan könüllülərimiz həmin ixtisas üzrə peşəkar biliklərə yiyələnir, onlara dövlətçilik, vətənpərvərlik hissi aşılanır və nəticədə həmin gənclər öz məsuliyyətlərini başa düşən faydalı insanlara çevrilirlər. Bir sözlə, gənclər üçün könüllülük fəaliyyətinin əsas mahiyyəti onlarda fərdi və peşəkar yanaşmanın formalaşdırılması, eyni zamanda onların məsuliyyətli insana çevrilməsidir. Gənclərimiz könüllülük fəaliyyətinə qoşulmaqla sosiallaşır, dövlət qurumlarının işində, cəmiyyətin inkişafı naminə həyata keçirilən faydalı layihələrdə daha yaxından və fəal iştirak edir, ətraflarında baş verən hadisələrə biganə qalmayan, məsuliyyətli insanlar kimi yetişirlər".

Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci ilin "Könüllülər ili" elan edilməsinə diqqət çəkən sektor müdiri bu sərəncamı ölkəmizdə tarixi könüllülük ənənələrinə verilən qiymət, yüksək dəyər adlandırır. O, hesab edir ki, dövlət başçısının sərəncamı son dövrlərdə genişlənən könüllülük hərəkatlarının işinə bir stimul verəcək, yeni könüllülük fəaliyyətləri üzrə proqramların başlanılmasına, yeni könüllülük təsisatlarının formalaşmasına da zəmin yaradacaq. Gənclər "Könüllülər ili"ndə mövcud olan, o cümlədən beynəlxalq və yerli miqyaslı könüllülük fəaliyyətlərinin işində daha fəal iştirak edəcəklər: "2012-ci ildə ilk "ASAN xidmət" mərkəzinin açılışı zamanı Prezident İlham Əliyev əməkdaşlarla yanaşı, mərkəzdə fəaliyyət



Ləman Əhmədova



Rəbiyyə Cəfərova



Səkinə Həsənova



göstərən könüllülərlə də görüşdü. Bu görüş əslində ölkəmizdə mövcud olan könüllülük fəaliyyətinin geniş bir hərəkata çevrilməsinə stimul verdi. 15 nəfərlə fəaliyyətə başlayan "ASAN Könüllüləri" ailəsinin hazırda 22 mindən çox üzvü var. Bu o deməkdir ki, Azərbaycanda gənclər arasında könüllülük fəaliyyətinə böyük maraq var. Əminəm ki, "Könüllülər ili" könüllülərin sosial məsuliyyət, fərdi inkişaf və peşəkarlıq sahəsində xüsusi inkişafına töhfə verəcək. Biz də cəmiyyətin, dövlətin rifahı naminə təmənnasız çalışan insanların fəaliyyətinin müsbət nəticələrindən sevinəcəyik. "Könüllülər ili"ndən ən çox qazanan elə könüllülər, cəmiyyətimiz, dövlətimiz olacaq".

S.Məmmədli onu da xüsusi vurğuladı ki, yaşından, cinsindən, təhsilindən asılı olmayaraq hər kəs könüllülərin arasına qoşula bilər. Bunu nəzərə alaraq 2018-ci ildə "Könüllülüyün yaşı yoxdur" şüarı altında yaşlıların könüllülük fəaliyyətinə başlanılıb. Eyni zamanda fiziki məhdudiyyətli gənclərin cəmiyyətə fəal inteqrasiya olması üçün inklüziv könüllülük proqramı icra olunur. Həmin proqram fiziki məhdudiyyətli gənclərin inkişafına mühüm töhfə verir. Eyni zamanda regionlarda gənclər arasında könüllülük hərəkatlarının stimullaşdırılması istiqamətində də agentlik xüsusi layihələr icra edir.

## "4 minə yaxın ixtisaslı kadr yetişdirilib"

Bəzən insanlar könüllülüyü sadəcə ərizə yazıb, anket doldurmaq kimi başa düşürlər. Halbuki belə deyil. Könüllülər üçün xüsusi proqramlar, layihələr, təlimlər icra olunur, onların bilik və bacarıqları artırılır. Belə layihələrdən biri də "ASAN Könüllülük" Məktəbinin "Master 2" pilləsidir.

Könüllülərlə iş sektorunun baş məsləhətçisi Əsli İbrahimli layihə barədə məlumat verərək deyir ki, "ASAN Könüllülük" Məktəbinin məqsədi Azərbaycanda könüllü fəaliyyətini təkmilləşdirmək və potensial kadr təminatını həyata keçirməkdir. "ASAN Könüllülük" Məktəbi iki mərhələdə keçirilir. "Master 1" adlanan birinci mərhələnin məqsədi gənclərin təhsil səviyyəsindən, ixtisasından asılı olmayaraq ümumi inkişaflarına dəstək olmaq, "ASAN xidmət" mərkəzlərinin işi ilə yaxından tanış olmaq və onların Azərbaycanda aparılan inzibati islahatlarda iştirakını təmin etməkdir. "Master 2" adlanan ikinci pillə isə könüllü kimi ixtisas sahəsi üzrə təcrübə toplamaq istəyən gənclər üçün yaradılıb. Peşə biliyi və bacarıqların inkişaf etdirilməsinə xidmət edən "Master 2" proqramı çərçivəsində gənclər öz ixtisasına, potensialına və ya maraq dairəsinə uyğun istiqamət seçir və təcrübə üçün müraciət edir. Bu pillə çərçivəsində məqsədimiz əmək bazarının ən çox tələb olunan sahələri (insan resursları və təlim; hüquqşünaslıq; beynəlxalq əlaqələr və diplomatiya; informasiya texnologiyaları; e-kargüzarlıq; marketinq və ictimai əlaqələr; çağrı mərkəzi xidmətləri; mühasibatlıq; strateji araşdırmalar) üzrə kadr hazırlığını həyata keçirməkdir: "ASAN Könüllülük" Məktəbinin bu iki mərhələsi sanki bakalavr-magistr pilləsi rolunu oynayır. Bu gün gənclərin çoxunun eyni problemi var - yaxşı təhsil alır, bilik əldə edirlər, oxuyub özlərini inkişaf etdirirlər, lakin bunları tətbiq edəcəkləri yer yoxdur. Adətən harasa işə müraciət edəndə də iş təcrübələrinin olmaması problem yaradır. Nəzəri bilikləri çox olsa da, onu təcrübədə tətbiq edə bilmirlər. Bu problemi aradan qaldırmaq üçün "Master 2" proqramını həyata keçiririk. 2015-ci ildən həyata keçirilən bu layihə çərçivəsində 4 minə yaxın gənc ixtisaslaşıb. Bu da onların karyera, şəxsi keyfiyyətləri və sosial vərdişlərinin inkişafına müsbət töhfə verir".

## "1400-ə yaxın könüllü "ASAN Kadr" vasitəsilə işlə təmin olunub"

ASAN könüllülərinin peşəkar kadrlar kimi formalaşması məqsədilə 2015-ci ildə "ASAN Kadr" Karyera Mərkəzi də yaradıldı. Mərkəzin rəhbəri Ləman Əhmədova bildirir ki, könüllülər "ASAN Könüllülük" Məktəbində əldə etdikləri zəngin, çoxşaxəli təcrübədən savayı, müxtəlif ixtisaslar üzrə təlimlərdə iştirak edərək nəzəri biliklərini, daha sonra müəssisələrdə təcrübə keçərək praktiki biliklərini inkişaf etdirirlər. Bu mərhələlərdən keçən hər bir könüllü asankadr.az portalında CV-sini yerləşdirir, eyni zamanda işəgötürənlər mütəmadi olaraq vakansiyaları elan edə bilirlər. Beləliklə, asankadr.az portalı gənclər, dövlət və özəl qurumlar arasında texnoloji körpü rolu oynayır: "Nəticə etibarilə 1400-ə yaxın ASAN könüllüsü işlə təmin olunub. Onlardan 400-dən çoxu "ASAN xidmət" mərkəzlərində, digərləri isə başqa dövlət qurumları və özəl müəssisələrdə işləyirlər. Ən çox operator, satış məsləhətçisi, informasiya texnologiyaları, sosial media marketinqi, rəqəmsallaşdırma, proqramlaşdırma və xidmət sahəsi üzrə mütəxəssislərə ehtiyac olur deyə, həmin kadrları ixrac edirik. Bu il də könüllülər üçün bir çox təlim proqramlarımız, layihələrimiz olacaq, may ayında karyera sərgimiz keçiriləcək".

## Uşaqların arzularını gerçəkləşdirən layihə

Sosial statusundan, yaşından asılı olmayaraq bütün insanları mənəvi bir bağ ətrafında birləşdirən, "Sevinc paylaşdıqca çoxalır" prinsipinə əsaslanan, uşaqların arzu və xəyallarını gerçəkləşdirən "ASAN Məktub" layihəsi də var. Bu layihənin məqsədi qədim xeyirxahlıq ənənələrinə malik olan ölkəmizdə əvəzsiz bir sosial fəaliyyətin başlanğıcını qoymaq, heç bir maddi qazanc güdmədən uşaqlara sevinc yaşatmaq, üzlərinin gülməsinə səbəb olmaqdır. "ASAN Məktub" layihəsi vasitəsi ilə respublika ərazisində yaşayan uşaq evlərinin, aztəminatlı ailələrin və kənardan qulluğa ehtiyacı olan uşaqların arzuları həyata keçirilir. Layihənin rəhbəri Rəbiyyə Cəfərova bu ideyanın 2015-ci ildə bir könüllü tərəfindən təklif olunduğunu xatırlayır: "Əvvəl təklif olundu ki, Novruz bayramında uşaqlara məktub yazdıraq və hədiyyələri də özümüz alaq. Könüllülər komanda olaraq birləşib uşaq evlərinə getdik, uşaqların arzularını soruşduq. İstəklərini məktublara yazdılar. Dedik biz bura gizli qəhrəman tərəfindən göndərilmişik, bayramda nə hədiyyə istədiyinizi məktubda qeyd edin, onu sizə alaq. Beləcə, 140-dan çox uşağa bayram hədiyyəsi aldıq. Sonra gördük bu işə maraq çoxdur. Kənardan eşidən vətəndaşlar da təşəbbüsə qoşulmaq istədiklərini bildirdilər. Ona görə elə həmin ilin noyabrında bu layihəni davamlı etmək qərarına gəldik, asanmektub.az saytını yaratdıq. ASAN könüllüləri uşaqlarla görüşüb məktubları yazdırandan sonra onları sayta yerləşdiririk. Dünyanın istənilən yerindən o məktubu oxuyub hədiyyəni göndərirlər. Hədiyyəni alan şəxs Azərbaycandadırsa, ASAN könüllülər gedib birbaşa onun ünvanından təhvil alırlar. Ölkə xaricindədirsə, poçt ünvanımıza göndərir. ASAN könüllü hədiyyəni uşaqlara çatdırır. Fotoşəklini də çəkib hədiyyəni alan vətəndaşa göndəririk ki, hədiyyəsinin uşağa çatdırıldığını bilsin".

R.Cəfərova deyir ki, bu illər ərzində 5 minə qədər məktub daxil olub və hər biri reallaşıb. Adətən uşaqlar müxtəlif hədiyyələr, oyuncaqlar, geyimlər istəyirlər. Amma bəzən gerçəkləşməsi mümkün olmayan arzular da olur: "Bəzən uşaqlar itirdiyi valideyninə məktub yazır. Ya da itirdiyi valideynin geri dönməsini arzulayır. Çox kədərlənirik o məktubları oxuyanda. Bir uşaq isə heç bir hədiyyə istəməmişdi. Yazmışdı ki, sadəcə mənim dostlarım olun. Getdik o uşaqla görüşdük, hədiyyələr də aldıq. Ümumiyyətlə, proses özü çox pozitivdir. Əvvəla, uşaq məktubu yazanda artıq bilir ki, nəticəsi nə olacaq. Bir uşaq hədiyyə istəyir, onun qarşılığında bir neçə adam sevinir - uşaq özü, o məktubu yazdıran könüllü, hədiyyəni alan şəxs. Hələ prosesin içində başqaları da var. Yəni sevinci yayırıq və uşaqların əlçatan arzularını gerçəkləşdiririk. Nə qədər çox uşaq sevinərsə, gələcəyimiz bir o qədər xoşbəxt olar".

## 37 min ağac kəsilməkdən xilas edilib

Diqqətçəkən layihələrdən biri olan "Yaşıl ASAN" respublika ərazisində kağız tullantılarının toplanmasına həsr olunmuş "Hər kağızı bir yarpağa dəyişək" layihəsinə dəstək məqsədilə 2015-ci ildə Dövlət agentliyi tərəfindən irəli sürülüb. Təşəbbüsün əsas məqsədi gənclərin ekoloji maarifləndirilməsi, sağlam həyat tərzinin və ətraf mühit mühafizəsinin təşviq edilməsidir. Layihə çərçivəsində kağız tullantıların toplanmasına, o cümlədən ətraf mühitin mühafizəsinə həsr olunmuş 100-dən çox müxtəlif aksiyalar, seminarlar, layihələr və təlimlər təşkil olunub.

"Yaşıl ASAN" proqramının rəhbəri Səkinə Həsənova qeyd edir ki, 5 il ərzində 17 mindən çox kağız tullantısı toplanıb təkrar emala təhvil verilib. Bununla da 37 min ağacın kəsilməsinin qarşısı alınıb. Səkinə xanım hər kəsə müraciət edir ki, istifadə etmədikləri kağız tullantılarını atmasınlar. Onlar bunları istənilən "ASAN xidmət" mərkəzinə təqdim edərək ətraf mühitimizi qorusunlar.

"Yaşıl ASAN" proqramı çərçivəsində Bakıda 3 dəfə "Yaşıl İncəsənət" rəsm-sərgi müsabiqəsi baş tutub. Layihənin əsas məqsədi müasir incəsənətdə mənzərə və natürmort janrlarının rolunu, əhəmiyyətini artırmaq, ətraf mühitin mühafizəsinə, Azərbaycanın relikt flora və fauna nümunələrinə, təbiət qoruqlarının bənzərsiz gözəlliklərinə maraq və diqqəti cəlb etməkdir.

"Yaşıl ASAN"ın təşəbbüsü ilə "Eko Memarlıq" layihəsi də irəli sürülüb. Son illərin tendensiyası olan ekoloji memarlığın əsas hədəfi bərpa edilən enerji qaynaqlarından istifadə edərək ətraf mühitə ən az zərər verəcək şəkildə binaların inşa edilməsidir.

Digər proqram isə əcnəbi könüllülər proqramıdır. S.Həsənovanın sözlərinə görə, 3 il ərzində Böyük Britaniya, Serbiya, Niderland, Pakistan, Çin, Hindistan, Qazaxıstan, Türkiyə, Əlcəzair, Tayland və Honkonq kimi ölkələrdən 25 əcnəbi "ASAN xidmət" mərkəzlərində könüllü fəaliyyətinə qoşularaq, ekoloji istiqamətdə müxtəlif təlim, layihə və ekskursiyalarda iştirak ediblər: "Bu proqramla "Yaşıl ASAN" beynəlxalq könüllülük istiqamətində böyük işlər görüb. Keçən il avqustda əcnəbi könüllülərlə birlikdə Şəki və Quba meşələrində təmizlik aksiyası keçirdik. "Gələrsən görərsən" dağına və Xınalığa yürüş etdik. Əcnəbilər təbiətimizə valeh oldular. Bu, Azərbaycanın tanıdılması üçün də bir təbliğatdır".

Bəli, bunlar könüllülərdir. Arzularına, fikirlərinə, məqsədlərinə qulaq verib könül söhbəti etdik. Və bir daha əmin olduq ki, Azərbaycanın gələcəyi bugünkü vətənpərvər, milli-mənəvi dəyərlərə bağlı, yardımsevər, savadlı, perspektvli gənclərin sayəsində daha da parlaq olacaq.

Elə siz də cəmiyyətdə faydalı işlər görmək, həyatınızı daha maraqlı etmək və özünüzü təkmilləşdirmək üçün könüllü olmaqdan çəkinməyin. Uğura gedən yol məhz elə könüllülükdən başlayır.

***Xəyalə MURADLI, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***






# Gənclik






● 2 fevral Gənclər Günüdür



# Gəncliyə dəyər verən siyasət

*Əvvəli 1-ci səh.*

## Gələcək onlarladır

Hər bir ölkənin, cəmiyyətin gələcəyə baxışında gənclər məsələsi xüsusi yer tutur. İstənilən strateji qərar gənc nəslin maraqlarının təmin olunması, onlara layiqli həyat şərtlərinin yaradılması üçün atılır. Eyni zamanda hər bir xalqın xoşbəxt gələcəyə olan ümidlərini həyata keçirə bilməsindən ötrü gənc nəslin gücünə, enerjisinə, yaradıcılıq əzminə böyük ehtiyac var. Xalqın formalaşdırdığı bütün dəyərlər, zəngin ənənələr gələcəyə məhz gənclər vasitəsilə ötürülür. Gənclik dövlətçilik ənənələrimizi, milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan miras qalmış gözəl adətlərimizi göz bəbəyi kimi qoruyub yaşadır. Bütün bunlar onların timsalında əbədilik qazanır və gələcək nəsillərə düzgün istiqamət verir. Bu baxımdan sağlam düşüncəli, savadlı nəslin yetişdirilməsi cəmiyyət üçün mühüm məsələdir.

Ulu Öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə də, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra da gənclər məsələsinə xüsusi önəm verməsi məhz bu zərurətə əsaslanırdı. Heydər Əliyev hər zaman gəncliyə böyük ümidlər bəsləyirdi. Azərbaycanın gələcəyinin gənclərin əlində olduğunu vurğulayırdı. Sağlam düşüncəli Azərbaycan gəncliyinin bu ümidləri doğruldub Vətənin gələcəyinə sahib çıxa bilməsindən ötrü onlara diqqət və qayğısını bir an əsirgəmirdi. Bu böyük dövlət xadimi fərqində idi ki, istənilən liderin hələ həyat yolunun başlanğıcındakı gəncliyə ən böyük töhfəsi onların təhsil almasına, fərdi inkişafına kömək göstərməkdir. Ona görə də Heydər Əliyev Azərbaycana hələ birinci rəhbərliyi dövründə onlarca yeni ali və orta ixtisas təhsili müəssisələri yaratmışdı. Ötən əsrin 70-80-ci illərində onun diqqət və qayğısı sayəsində minlərlə azərbaycanlı gəncin keçmiş ittifaqın ən aparıcı ali məktəblərinə müxtəlif nadir ixtisaslar üzrə təhsil almağa göndərilməsi də hər zaman rəğbətlə xatırlanan tarixdir.

## Gəncliyə qayğı

Heydər Əliyev ölkə rəhbərliyinə qayıdışından sonra da Azərbaycan gəncliyinə yenidən sahib çıxdı. Qaragüruhçu qüvvələrin öz məqsədlərinə çatmaqdan ötrü sadəcə vasitə kimi baxdıqları, küçələrdə, meydanlarda öz maraqları üçün istifadə etmək istədikləri, təhsildən, kitabdan, elmdən, sağlam düşüncədən uzaq salmağa çalışdıqları Azərbaycan gəncliyini bu ziyanlı ünsürlərin əlindən aldı. Gənclərimizi sağlam düşüncə işığında, Vətən, dövlət, ümumxalq mənafeləri ətrafında bir araya gətirdi. Gənc nəslə diqqət və qayğını özü də hələ gənc olan müstəqil dövlətimizin ən strateji istiqamətlərindən birinə çevirdi. Azərbaycan gənclərinin təşkilatlanması əsas məqsədlərdən biri kimi qarşıya qoyuldu. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədilə 1994-cü ildə yaradılmış Gənclər və İdman Nazirliyi qısa müddətdə dövlət gənclər siyasətinin istiqamətlərini müəyyənləşdirərək uğurla həyata keçirməyə başladı. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumu Azərbaycan gəncliyinin həyatında mühüm bir səhifə açdı. Həmin forum zamanı Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünməlidir. ...Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!"

## Tarixdə yeni səhifə

Ulu Öndərin Azərbaycan gəncliyinə olan bu inamı, ümidi tarixin yeni mərhələlərində tam özünü doğrultdu. Böyük uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahədə apardığı ardıcıl, məqsədyönlü işlə yeni inkişaf mərhələsinə qədəm qoydu. Prezident İlham Əliyev digər sahələrdə olduğu kimi, Ümummilli Liderin gənclər siyasətinə sadiqliyini də qəbul etdiyi bütün qərarlarla sübuta yetirdi. Azərbaycan gəncliyinin həyatında 2003-cü ildən yeni bir yüksəliş dönəmi başlandı. Gənclərin cəmiyyət həyatında aparıcı qüvvəyə çevrilməsi, onların sosial-iqtisadi problemlərinin həllinin təmin edilməsi məqsədilə icra olunan dövlət proqramları, dövlət quruculuğunda gənclərin iştirakına şərait yaradılması, gənclərin mənəvi inkişafı, onların vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil alması, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, gənclər təşkilatlarının formalaşması və inkişafına verilən dəstək bu tarixin ayrı-ayrı xoş məqamlarıdır.

Azərbaycan Prezidentinin həyata keçirdiyi gənclər siyasətində sağlam həyat tərzinin təbliği, idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması mühüm yer tutur. Dövlət başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Müxtəlif bölgələrimizdə olimpiya-idman komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq yarışlara evsahibliyi etməsi, idmançılarımızın olimpiadalarda, dünya çempionatlarında və digər mötəbər turnirlərdə uğurlu çıxışları buna əyani sübutdur.

Prezident İlham Əliyevin 2007-ci ili ölkəmizdə "Gənclər ili" elan etməsi də onların Azərbaycanın ictimai-siyasi və mədəni həyatında fəallığının daha da yüksəlməsinə səbəb oldu.

Bu gün Azərbaycanda müasir gənclər hərəkatının inkişafı üçün dövlət səviyyəsində kifayət qədər işlər görülüb. Uşaq və gənclər qeyri-hökumət təşkilatlarının yaradılması, onların fəaliyyətlərinin təşkili üçün sağlam mühit formalaşdırılıb, hüquqi baza təkmilləşdirilib. Hazırda Azərbaycan gəncliyi ölkəmizdə aparılan davamlı islahatların əsas kadr bazası kimi çıxış edir. Dövlət rəhbəri gəncləri müxtəlif yüksək dövlət vəzifələrinə irəli çəkir. Onlara etimad göstərir. Gənclərin simasında idarəetmə sistemi zamanın çağırışlarına uyğun dəyişir, ölkə həyatına mütərəqqi meyillər daxil olur. Azərbaycan gəncliyi öz bilik və bacarıqları ilə ölkəmizdə aparılan inkişaf proseslərinə töhfə verir.

## Savadlı, bacarıqlı, vətənpərvər gəncliyə inam

Tarixin bütün dövrlərində və bütün ölkələrdə gəncliyin ən böyük ehtiyacı məhz təhsil imkanları ilə bağlı olub. Müasir dünyamızda isə bu, demək olar ki, həyati vacib zərurətə çevrilib. Dünya çox sürətlə dəyişir. Bilik, təhsilə, elmə əsaslanan innovativ bacarıqlar əsas həyat şərtinə çevrilir. İnsan kapitalının formalaşdırılması müasir cəmiyyətlər qarşısında ən mühüm vəzifə kimi durur. Bu reallığı nəzərə alaraq Azərbaycanda da gəncliyə keyfiyyətli təhsil imkanlarının təmin edilməsi, fərdi inkişaf mühitinin hər kəs üçün əlçatanlığı naminə, demək olar ki, bütün imkanlar səfərbərliyə alınır. Azərbaycan Prezidentinin ölkə gəncliyinə əsas çağırışları da məhz təhsillə, biliklərin, innovativ bacarıqların əldə olunması ilə bağlıdır. Bakı Dövlət Universitetinin yaradılmasının 100-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdəki çıxışı zamanı da Prezident İlham Əliyev gənclərimizə ilk növbədə bunu təlqin etdi: "Bilik olmalıdır. Çünki indi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır. Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da. Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik. Artıq bilinir ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Amma biz əhalisi artan ölkəyik. Sovet dövründəki 7 milyondan 10 milyona çatıb bizim əhalimiz. Ona görə biz o yeni peşələri gərək mənimsəyək. Gərək imkan yaradaq bizim vətəndaşlara ki, o peşələrə onlar yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur".

Azərbaycan Prezidenti gənclərin vətənpərvərlik tərbiyəsini də son dərəcə mühüm vəzifə sayır: "Bu olmasa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq".

## Vətənpərvərlik nümunəsi

Dövlət rəhbərimizin ölkə gəncliyi ilə bağlı arzularının reallaşmasında, irəli sürdüyü davamlı inkişaf konsepsiyasının uğurla həyata keçirilməsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xidmətləri böyükdür. Onun irəli sürdüyü layihələr, Heydər Əliyev Fondunun bu layihələrin icrası istiqamətində gördüyü işlər cəmiyyətin ümumi potensialını səfərbər edir. Gənc nəslə öz bilik və bacarıqlarını nümayiş etdirməkdən ötrü bərabər imkanlar mühiti yaradılır. Onların istedadına dəstək verilir. Mehriban xanım Əliyevanın elmin, təhsilin dinamik inkişafı, gənc nəslin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması, yeniyetmələrin sabahın layiqli vətəndaşları kimi yetişməsi istiqamətində məqsədyönlü fəaliyyəti gənclərimiz üçün parlaq vətənpərvərlik nümunəsi yaradır.

Azərbaycan gəncliyi bu siyasəti dəstəkləyir, ölkəmizin xoşbəxt gələcəyini, yeni qüdrətli mərhələlərə yüksəlməsini bu strateji inkişaf kursunda görür.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Daim axtarışda olan aparıcı qüvvə

**Azərbaycanda gənclər gününün təsis edilməsindən düz 23 il ötür. Bu mühüm hadisəyə tarixi nöqteyi-nəzərdən yanaşsaq, heç şübhəsiz ki, respublikamızda bir çox ilklərin təməlini qoyan, müasir Azərbaycanın banisi olan Ümummilli Lider Heydər Əliyevin bu məsələdə qətiyyətini və gələcəyi görmə kimi fenomen xüsusiyyətini yada salmamaq mümkün deyil.**



Gənclər gününün təsis edilməsinin ən yaddaqalan məqamlarından biri də onun coğrafi miqrasiyası ilə bağlıdır ki, bu tarixi hadisəni Azərbaycanın daxili sərhədlərilə məhdudlaşdırmaq ədalətsizlik olardı. Belə ki, Ulu Öndərin sərəncamından bir il sonra, 1998-ci ildə Lissabonda keçirilən konfransda BMT-nin qərarı ilə dünyada gənclər günü təsis edilmişdir. Bu iki tarixi hadisənin mərkəzində Heydər Əliyevin iradəsi və gənclərin gələcəyi ilə bağlı bərqərar etdiyi siyasi baxışın gücü dururdu.

Məhz həmin tarixdən sonra Azərbaycanda gənclər siyasətilə bağlı yeni prioritetlər və onların gerçəkləşdirilməsi fonunda böyük imkanlar yarandı. Bununla bağlı tarix bizə 1999-cu ildə Dövlət Gənclər Siyasəti haqqında imzalanmış fərmanı, indiyədək reallaşan dövlət proqramlarını, respublikamızın hüdudlarında ərsəyə gətirilmiş çoxsaylı gənclər, eləcə də Olimpiya İdman mərkəzlərini və s. xatırladır. Gənclərimizin aktiv olduğu təhsil, mədəniyyət, idman və digər sahələrlə əlaqəli beynəlxalq arenalarda qazanılan uğurlar, medallar və ümumilikdə, qalibiyyətin simvollarını xarakterizə edən ən böyük nailiyyətlər Ümummilli Liderin gənclər siyasətinin geniş diapozununu açıqca nümayiş etdirir.

Əlbəttə, tarix göstərir ki, siyasi iradənin dayanıqlı olması, onun davam etdirilməsi çox böyük məsuliyyət və idarəçilik məharəti tələb edir. Bunun üçün genetik xüsusiyyətlərlə bərabər, müasir həyatın tələb və imkanlarını yaxşı təhlil etmək, gələcəklə əlaqəli doğru proqnozlar vermək, bütövlükdə liderlik vəsflərini daşımaq ən böyük şərtlərdəndir. Ümumillili Liderin bütün siyasi baxışlarını mənimsəyən, onların gələcək hədəf və vəzifələri ilə bu günün tələb və imkanlarını ustadcasına uzlaşdıran Prezident İlham Əliyevdə qeyd edilən müsbət xüsusiyyətlər ziyadəsilə mövcuddur. Hazırda Azərbaycanda irəli sürülən siyasi xətt, o cümlədən gənclərimizin inkişafı ilə bağlı qəbul edilən mühüm qərarlar, gerçəkləşdirilən nəhəng layihələr xalqın təqdirini və rəğbətini qazanır.

Gənc nəslin inkişafında xüsusi rola malik, neçə Azərbaycan gəncini zirvələrə daşıyan gənclər siyasətinin təməlini təşkil edən gənclər günü haqlı olaraq hər il müxtəlif sahələrdə fəaliyyət göstərən gənclər təşkilatları tərəfindən qeyd edilir, həmçinin nailiyyətlər xatırlanır və gələcək hədəflərlə əlaqəli fəaliyyətin istiqamətləri müəyyənləşdirilir. Ötən 2019-cu il də Prezidet tərəfindən həyata keçirilin gənclər siyasəti, o cümlədən dövlətin yaratdığlı imkanlar elm sahəsində çalışan gənclərimiz üçün də xeyli uğurlu olmuşdur. Həm ölkə daxilində, həm də respublikamızın hüdudlarından kənarda gənclərimizin əldə etdiyi nailiyyətlər ötən illərə nisbətən daha məhsuldar keçmişdir.

Belə ki, Azərbaycan Milli Elmlər Akademiyasının Gənc Alim və Mütəxəssislər Şurasının üzvləri kimi gənc alimlərimizin bu il fundamental və tətbiqi elmi istiqamətlər üzrə çoxlu sayda elmi əsərləri işıq üzü görmüşdür. Sevindirici haldır ki, dünyanın elmimetrik mənzərəsində Azərbaycan alimlərinin reytinqi ötən il xeyli artmış, bu tendensiyada gənclərimiz xüsusi fərqlənmişlər. Qlobal miqyada ən nəhəng bazalar hesab edilən "Web of Science" və "Scopus"da indeksləşən jurnalların səhifələrində azərbaycanlı gənc alimlərin ad və soyadları göz oxşayır.

Əlbəttə, əldə edilən yerli və beynəlxalq əhəmiyyətli uğurların, o cümlədən formalaşan təqdirəlayiq mənzərənin mahiyyətində nə qədər şəxsi keyfiyyətlər üst sıralarda durursa, bir o qədər də göstərilən etimad və yaradılan imkanlar həlledici rola malik olur. Gənc alimlərimiz üçün uğurlu gələcəyin təminatında bu iki amil tandem təşkil edir ki, bizlər hər zaman cənab Prezidentin dəstəyindən ilhamlanaraq Azərbaycan elmini zirvələrə daşımaq məqsədlərimiz uğrunda əzmlə çalışırıq.

***Famin SALMANOV,***
***AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri,***
***fizika üzrə fəlsəfə doktoru, dosent***

● Layihə

# "Dağlıq Qarabağ abidələri - erməni terroru" internet məkanında

**Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə, Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilati dəstəyi ilə baş tutan tədbirdə layihə rəhbəri Əli Miriyev çıxış edərək layihənin Gənclər fondunun XIII qrant müsabiqəsində qalib olduğunu bildirib.**



Məqsəd Qarabağ ərazisində olan və münaqişə zamanı məhv edilən maddi və mədəniyyət nümunələri, tarix və mədəniyyət abidələri haqqında məlumatları gənclərə çatdırmaq və informasiya texnologiyaları vasitələrindən səmərəli istifadə edərək dünya ictimaiyyətinin nəzərinə çatdırmaqdır. Bu istiqamətdə ən gözəl nümunə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanan "Xocalıya ədalət" kampaniyasıdır və bu layihə də onun tərkib hissəsidir. .

Layihə koordinatoru Əliyar Rəfiyev çıxışında layihənin əhəmiyyətindən, tarix boyu ermənilərin vətənimizə qarşı işğal siyasətindən, törədilən vəhşiliklərdən danışıb, dünya ictimaiyyətinin bu hadisələrə biganə qalmaması üçün gənclərin maarifləndirməsinin və təbliğat işinin sürətləndirilməsinin vacibliyini qeyd edib.

Daha sonra erməni işğalı nəticəsində məhv edilmiş və saxtalaşdırılmış mədəni irsimiz haqqında elektron təqdimat edilib. Məlumatların paylaşılması, göndərilməsi məqsədilə müvafiq beynəlxalq təşkilatların elektron ünvanları iştirakçılara çatdırılıb və onlara maarifləndirici bukletlər paylanılıb. Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

● Gələcəyə dəstək

# Könüllülük böyük missiyadır

**1998-ci ildə Gənclər və İdman Nazirliyi, BMT-nin İnkişaf Proqramı və Könüllüləri Proqramı ilə birlikdə 650 gənci əhatə edən ilk pilot layihə həyata keçirilib. Məhz 1998-2000-ci illərdə reallaşdırılan proqram nəticəsində könüllülük prinsipləri daha geniş auditoriyada təbliğ olunmağa başlayıb və ilk könüllü komandası yaradılıb. Ulu Öndər Heydər Əliyev tərəfindən başlanılmış bu hərəkat, bu ideya hazırda geniş vüsət alıb.**

Könüllülüklə bağlı ilk böyük hərəkat 2012-ci ildə olub. Azərbaycanda keçirilmiş "Eurovision-2012" mahnı müsabiqəsinin təşkilati işlərinə 1200-dək könüllü cəlb edilib. Gənclərimiz bu sınaqdan uğurla çıxıblar.

Bakıda keçirilmiş ilk Avropa Oyunları daha geniş miqyasda oldu. Bu mötəbər çoxnövlü idman turnirində 17 minə yaxın gənc könüllülük fəaliyyətinə cəlb edildi. Həmin tədbirdə iştirak etmək üçün 20 mindən artıq gənc müraciət etmişdir. Daha sonra ölkədə keçirilən "Formula-1", IV İslam Həmrəyliyi Oyunları və digər irimiqyaslı tədbirlərdə bu hərəkat daha da genişləndi. Onların hər birinə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın imzası ilə diplomlar təqdim edildi.

Azərbaycan MDB dövlətləri arasında könüllülərin fəaliyyəti ilə bağlı qanun qəbul edən ilk ölkələrdən biridir. 2009-cu ildə ölkəmizdə "Könüllü fəaliyyəti haqqında" qanun qəbul edilib. Ötən il fevralın 1-də keçirilən Azərbaycan gənclərinin respublika toplantısında Prezident İlham Əliyev könüllülük hərəkatında gənclərin rolunu xüsusi vurğulayıb, könüllülük fəaliyyətinə qoşulmağı, könüllü olaraq bu və digər sahələrdə çalışmağı gənclərə tövsiyə edib.

Azərbaycan Prezidentinin 2020-ci ili "Könüllülər ili" elan etməsi bu hərəkatın inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Hər bir Azərbaycan gənci könüllülük hərəkatına qoşulduqda vətəndaşlıq borcunu bu fəaliyyət üzərindən həyata keçirir. Gənclərimiz xaricdən gələn qonaqlarla ünsiyyətdə olur, onları müşayiət etməklə yanaşı, Azərbaycanımızın mədəniyyətini, tarixini, ölkəmizlə bağlı həqiqətləri təbliğ edirlər. Bu, özlüyündə böyük bir missiyadır. Sevindirici haldır ki, gənclərimiz bu missiyanı uğurla yerinə yetirirlər. Bu gün Azərbaycanın 20 mindən artıq gənci könüllülük hərəkatında iştirak edir.

***"Azərbaycan"***

Leyla Bədirbəyli - 100

# Azərbaycan gözəli

**Leyla Bədirbəyli o unudulmaz sənətkarlarımızdandır ki, uzunmüddətli fəaliyyəti ərzində öz sələflərinin ənənələrini uğurla davam etdirmişdi. Layiqli nümayəndəsi olduğu nəslin yaradıcılıq prinsiplərinə ehtiram hissi ilə Azərbaycan mədəniyyətinə böyük töhfələr vermişdi.**







Azərbaycan Prezidenti İlham Əliyevin "Leyla Bədirbəylinin 100 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2019-cu il tarixli sərəncamında onun yaradıcılıq irsi yüksək dəyərləndirilir: "O, fitri istedada malik teatr ustası kimi ifa üslubundakı səmimiyyət, məlahət və təbiilik sayəsində dramaturqlarımızın və dünya ədəbiyyatı klassiklərinin çox sayda qadın qəhrəmanına zəngin boyalarla parlaq səhnə həyatı vermişdir. Aktrisa "Arşın mal alan" filmində Gülçöhrə obrazı ilə böyük şöhrət qazanmış, 1940-cı illərdən etibarən, eyni zamanda, ekranlarda məharətlə canlandırdığı və mənəvi-əxlaqi dəyərlərin təbliği, tamaşaçı zövqünün formalaşdırılması baxımından əhəmiyyət kəsb edən silsilə rollarla milli kinematoqrafiyanı daha da zənginləşdirmişdir".

## Səhnəmizin gözəllik pərisi

Azərbaycanda ona qədər də hüsnünə dastanlar qoşulan gözəl xanımlar çox olmuşdu. Ana təbiət ondan sonra da qadınlarımızdan gözəllik lütfünü əsirgəməmişdir. Amma bu gözəlliyin canlı simvoluna çevrilmək, Azərbaycan gözəli deyiləndə qənirsiz çöhrəsi ilə ilk yada düşənlərdən olmaq məhz onun qismətinə yazılmışdır.

Mənalı ömür yolunda çox rəsmi adlar, titullar qazanmışdı: "İstiqlal" ordeninə layiq görülmüş, Azərbaycanın Xalq artisti, görkəmli teatr xadimi, SSRİ və Azərbaycanın dövlət mükafatları laureatı olmuş və daha nələr, nələr... Xalqın təfəkküründə formalaşmış Azərbaycan gözəli titulu isə bunların hamısından üstün idi. Çox maraqlıdır ki, digər titul və mükafatlarından fərqli olaraq bu ad heç bir sənəddə rəsmiləşməmişdi. Amma böyüyüb boya-başa çatdığı doğma Vətəndə hamı bu səhnə ilahəsini rəsmi təltiflərindən daha çox Azərbaycan gözəli epiteti ilə xatırlayır.

Leyla xanım 1920-ci ilin yanvarında, o illərin gərgin siyasi hadisələri ilə qaynayan Bakıda dünyaya göz açmışdı. Əslən Şəmkirin Dəllər kəndindən idi. Atası Ağalar bəy də, anası Bikə xanım da Şəmkir bəyzadələrinin nəslindən sayılırdı. Atası hərbçi olmuş, polkovnik rütbəsinə qədər yüksəlmişdi. Dünyasını dəyişəndə 90 yaşı vardı.

Yanvarın ayazlı, qarlı-şaxtalı bir günündə doğulsa da, Tanrı bu zərif vücuda ilıq yaz nəfəsi, bahar təravəti qismət etmişdi. Qadın aktrisaların olmadığı, onların rollarını da bəlli səbəblərdən kişi aktyorların oynamaq məcburiyyətində qaldığı həmin çətin illərdə tale sanki bu gözəlliyi Azərbaycan səhnəsinə bir hədiyyə kimi göndərmişdi. Körpəliyindən surətini görən hər kəs böyüyüncə onun çox gözəl bir qız olacağını deyirdi. Doğmaları onun gələcəyini görməyin intizarını çəkirdilər. Elə teatr səhnəmiz, milli kinomuzun ekranı da bu gözəlin intizarında idi.

Xoş bir təsadüf onu öz gələcək sənət taleyinə doğru yönləndirdi. Sovet hakimiyyəti qurulandan sonra anası Bikə xanım Bakıdakı Mərkəzi Kəndçilər Evinin tibb məntəqəsində işləyirdi. Həkim idi. O, Əli Bayramov klubuna - qadınların dərnəyinə tez-tez gedirdi. Qızı Leylanı da özü ilə kluba gətirirdi. Orada dram dərnəyi vardı. Dərnəkdə həvəskar aktyorlar məşq edərdilər. Leyla da onların məşqlərinə böyük maraqla baxardı. Elə gələcəyin böyük sənətkarının incəsənətə meyili də o vaxtdan yaranmağa başlamışdı. Hətta yazırlar ki, rejissor Əlisəftər Babayevin rəhbəri olduğu dram dərnəyində 8 yaşlı bu qız "Coşqun" tamaşasında Coşqunun bacısı kimi səhnəyə çıxmışdı. Rolunu məharətlə oynamışdı. O gündən də Azərbaycan teatrı və kinosu tarixində Leyla Bədirbəyli ömrü başlamışdı.

## Rəqsləri könül oxşayırdı

Məktəbdə oxuya-oxuya dram, rəsm dərnəklərinə də gedirdi. Ədəbi gecələrdən, konsert mərasimlərindən qalmırdı. Beləcə, yavaş-yavaş o da ecazkar sənət aləminin doğma simasına çevrilirdi.

Leyla Bədirbəylinin kinoya gəlişi də çox erkən olmuşdu. O, hələ yeniyetmə ikən moskvalı rejissor D.Vertovun "Lenin haqqında üç mahnı" sənədli filmində pioner qız rolunda çəkilmişdi. 1937-ci ildə isə 17 yaşlı Leyla Azərbaycan Dövlət Filarmoniyasında təşkil edilmiş rəqs ansamblına dəvət almışdı. Bundan sonra 1937-1942-ci illərdə ansamblın solisti kimi çalışmışdı. Düz beş il burada zərif, incə rəqsləri ilə könülləri oxşamışdı. Gənc solist bu ansamblda "Bir dənəsən", "Naz eləmə", "Tərəkəmə" rəqslərini elə məharətlə ifa edirdi ki, aradan əsrə bərabər müddət keçsə də, o ecazkar ifalar mədəniyyət tariximizin hələ də işıqlı yaddaşındadır.

O, burada sonralar "həyatımın güněşi" adlandıracağı böyük ustadla, dahi Üzeyir Hacıbəyli ilə tanış olmuşdu. Filarmoniyada mahnı və rəqs ansamblının yaradılması Üzeyir bəyin təşəbbüsü idi. Leyla xanım bu ansamblla 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə də iştirak etmişdi. Siyasi Büronun bütün üzvləri orada imiş. Üzeyir bəy, Bülbül, Şövkət Məmmədova Stalinin yanında əyləşmişdilər. Leyla Bədirbəyli "Bəri bax" mahnısı əsasında quruluş verilmiş rəqsi ifa edir. Mahnı və rəqsdən təsirlənən Stalin Bakıda gizli fəaliyyətdə olduğu illərdə dostları ilə bu mahnını parol kimi oxuduqlarını xatırlayır və gənc Leylanı yanına çağıraraq kim olduğunu soruşur. Azərbaycanlı rəqqasənin filarmoniyada çalışdığını öyrənir. Onu bağrına basaraq deyir: "Sən Azərbaycan gözəlisən".

Ömrünün qürub çağlarında da Leyla xanım Georgiev salonunda gerçəkləşən o möhtəşəm gecəni tez-tez xatırlayardı.

## Böyük səhnəyə doğru

Rəqs fəaliyyəti ilə yanaşı, o, filmlərə də çəkilməkdə davam edirdi. 1941-ci ildə "Səbuhi" filmində Tubu, 1942-ci ildə "Sovqat" filmində Ayna rollarını oynamışdı. O dövrün Adil İsgəndərov, Rza Təhmasib, İsmayıl Dağıstanlı, Mirzə İbrahimov, Ənvər Məmmədxanlı, Rəsul Rza kimi görkəmli teatr, kino, ədəbiyyat xadimləri bu gənc istedadın ifalarını, rollarını diqqətlə izləyirdilər. Onun yüksək aktrisalıq potensialını görürdülər və bu potensialdan istifadə etməyə çalışırdılar. Məhz bu korifeylərin məsləhəti ilə Leyla Bədirbəyli 1942-ci ildə M.Əzizbəyov adına Akademik Dram Teatrına gəlir. İlk tamaşası Rəsul Rzanın "Vəfa"sı olur. Beləliklə, teatrın qapıları Leyla xanımın üzünə böyük bir dünya açır. Teatr səhnəsi onun həyatının mənasına çevrilir.

Aktrisanın özü teatra gəlişini sonralar belə xatırlayırdı: "Xalq yazıçısı Mirzə İbrahimov, Ənvər Məmmədxanlı, Rəsul Rza, Rza Təhmasib və Adil İsgəndərov kimi sənətkarların təsiri ilə mən günlərin birində fılarmoniya səhnəsindən Akademik Dram Teatrının səhnəsinə dəvət olundum. Bu dövrü mən yaradıcılığımın ikinci və daha mühüm dövrü hesab edirəm".

Leyla Bədirbəylinin M.İbrahimovun "Məhəbbət" tamaşasında Zəhra rolu böyük anşlaqla qarşılandı. Sonra isə A.Ostrovskinin "Tufan" əsərində Klaşa obrazını yaratdı. Ardınca teatr səhnəsində "Pəri Cadu" tamaşasında Pəri, "Vaqif"də Gülnar və Xuraman, "Xanlar"da Mehriban, "Solğun çiçəklər"də Sara, "Almaz"da Almaz, "Şərqin səhəri" əsərində Dilarə, "Xoşbəxtlər"də İncə, "Əliqulu evlənir"də Qumral, "Kəndçi qızı"nda Göyərçin, "Uzaq sahillərdə"də Anjelika, "Otello"da Dezdemona, "Canlı meyit"də Liza və digər rolları böyük məharətlə canlandırır. O, tamaşalarda da, çəkildiyi kinolarda da əsasən baş rollarda oynayırdı.

## Gül çöhrəli "Gülçöhrə"

Bütün sovet adamları kimi, 1945-ci il Leyla Bədirbəylinin də həyatında əlamətdar bir il kimi yadda qalır. Bu, təkcə faşizm üzərində qələbə ilə bağlı deyildi. Həmin il "Arşın mal alan" filmi çəkilirdi. Bu film Stalinin xüsusi diqqətində idi. Bunun da iki səbəbi vardı. Bir tərəfdən, xəbər gəlmişdi ki, Amerika kinematoqrafçıları Üzeyir Hacıbəylinin "Arşın mal alan" əsəri əsasında film çəkmək istəyirlər. Stalin sovet kinosunun onları qabaqlamasını istəyirdi. Digər tərəfdən isə, Stalin sovet kinematoqrafçılarından faşizm üzərində qələbə çalmış ölkəsinin tərənnümünü tələb edirdi. Elə bir film çəkilməli idi ki, Hollivudu geridə qoysun. Ölkənin bütün kinostudiyaları bu tapşırığı yerinə yetirməkdən ötrü səfərbər olsa da, 1945-ci ildə bu işi "Arşın mal alan"la yalnız "Azərbaycanfilm" bacardı. Film 140 ölkədə nümayiş olundu. Sovet İttifaqına inanılmaz dərəcədə böyük mənfəət gətirdi. Filmin gözəlliyi, koloriti Avropa tamaşaçısını heyrətləndirmişdi. "Arşın mal alan"ın bu uğurunda təbii ki, Gülçöhrə rolunun ifaçısının da böyük əməyi vardı.

1945-ci ildə "Arşın mal alan" filmi çəkilməyə başlayanda Gülçöhrə roluna Leyla Bədirbəylidən başqa 100-dən artıq namizəd vardı. Sovet hakimiyyətinin qurulmasından ötən 25 il ərzində Azərbaycanda kifayət qədər qadın aktrisa yetişmişdi. Onların çoxu Gülçöhrə roluna çəkilmək imkanında idi. Bu rola çəkilmək istəyən aktrisaların hamısı sınaq çəkilişlərində olur. Ancaq Leyla Bədirbəyli heç bir sınaq çəkilişində iştirak etmir. Filmə isə yalnız Üzeyir bəyin dəvəti və təşəbbüsü ilə gəlir. Rza Təhmasib böyük bəstəkarın tövsiyəsini nəzərə alaraq Gülçöhrə roluna Leylanı çəkməyə razılıq verir. Düzdür, çəkiliş zamanı çətinliklər də az olmur. Lakin Leyla Bədirbəyli dünya ekranlarına çıxan "Arşın mal alan" filmində ən böyük sənət uğurlarından birinə nail olur. Onun bu filmdəki oyununda Gülçöhrənin qətiyyəti o qədər təbii, səmimi alınır ki, uzun illər aktrisanın adı bu qəhrəmanın adı ilə uyğun səslənir.

Böyük sənətkar Gülçöhrə roluna görə dövrün ən böyük təltiflərindən olan Stalin mükafatına layiq görülür. Bütün Sovetlər İttifaqında bu mükafatı daşıyan üç qadından biri olur. "Arşın mal alan"a görə yaradıcı qrup, o cümlədən Leyla Bədirbəyli 1946-cı ildə SSRİ Dövlət mükafatına da layiq görülür.

## Filmlər, talelər

Leyla Bədirbəylinin kinoda "Arşın mal alan"dan sonrakı aktrisa taleyi də yetərincə uğurlu keçir. Onun çəkildiyi filmlərin tematik dairəsi geniş, qəhrəmanları müxtəlifdir. O, əlliyə yaxın bədii, bədii-televiziya, qısametrajlı bədii filmdə çəkilir. O, həmişə yüksək insani keyfiyyətlərə malik milli koloritli qadınların obrazlarını yaradırdı. Onun "Fətəli xan" və "Koroğlu" filmlərində yaratdığı Tuti Bikə və Nigar obrazları təkcə sevimli ərlərinin etibarlı həyat yoldaşları deyil, həm də igid, cəsur məsləkdaşlarıdır.

"Onun böyük ürəyi" filmindəki Xalidə rolu da kifayət qədər uğurlu ifalardandır. Burada aktrisa böyük psixoloji həssaslıqla insan xarakterinin pərakəndəliyini və inamsızlıq hissini açıb göstərə bilir. Azərbaycan və Özbəkistan pambıqçılarının dostluğundan bəhs edən, sevginin, zəhmətsevərliyin, sağlam rəqabətin tərənnüm olunduğu "Görüş" kinokomediyasındakı ən yaddaqalan süjet xətlərindən biri də məhz Leyla xanımın iştirakı ilə yaradılır.

Kinorejissor Şamil Mahmudbəyovun "Dərviş Parisi partladır" filminə Leyla Bədirbəylinin dəvət edilməsi isə vaxtilə təəccüblə qarşılanmışdı. Ekranda ciddi rollar oynayan aktrisanın komediya janrında da uğurlu çıxış edəcəyinə sənət dostları bir o qədər inanmırdılar. Amma Leyla Bədirbəylinin ekran yaradıcılığında Şəhrəbanu obrazı aktrisanın sənət axtarışlarında yeni istiqamət kimi diqqəti çəkir. Komediya janrının estetikasında aktrisanın incə yumor boyaları onun yüksək sənətkarlığını aydın səciyyələndirir.

## Sonuncu pərdə

Onun bir-birindən maraqlı, yaddaqalan rolları bu filmlərlə bitmir. Leyla Bədirbəyli müxtəlif illərdə çəkilmiş "Kölgələr sürünür" filmində Leyla, "İntizar"da Ana, "Sevil" film-operasında Tafta, "Gilas ağacı"nda nənə, "Bizim küçənin oğlanları"nda Leyla, "Çarvadarların izi ilə"də Məfruzə, "Vulkana doğru"da Gülsüm, "Kişi sözü"ndə ana, "Asif, Vasif, Ağasif"də nənə, "O dünyadan salam" filmində Kəblə Fatma və başqa filmlərdə də unudulmaz obrazlar yaradıb.

Leyla Bədirbəyli milli teatr və kinodakı fəaliyyəti ilə uzun illər Azərbaycan incəsənətinə, mədəniyyətinə öz töhfəsini verib. O, "Azərbaycanfilm" kinostudiyasının aktyor şöbəsində işləyərkən istedadlı gənclərin inkişafına çalışıb, onlara dəyərli məsləhətlərini verib.

Leyla Bədirbəyli eyni zamanda Azərbaycan Milli Televiziyasının çəkdiyi bir çox televiziya tamaşalarında da müxtəlif rollar ifa edib. Uzun illər televiziyanın "Aktyor, kino, rol" verilişinin aparıcısı olub.

Onun teatr səhnəsində, kinoda, ekranda qazandığı bütün uğurların təməlində müstəsna istedadından başqa bir mühüm sirr də var. Bu, Leyla Bədirbəylinin öz sənətinə sonsuz sevgisi və bir o qədər də böyük məsuliyyəti idi. Bacısı xatırlayır ki, Cəfər Cabbarlının "Solğun çiçəklər" əsərində Sara rolunu oynayarkən sonuncu pərdə bitəndən sonra heç vaxt başqa aktyor və aktrisalarla birgə tamaşaçılarla sağollaşmaq üçün səhnəyə çıxmazdı. Səbəbini izah edəndə deyərmiş ki, axı tamaşanın finalında Sara ölüb, o, yenidən səhnədə necə görünə bilər?!

Leyla xanım istedadlı bir aktrisa kimi tamaşaçı qəlbini necə sehirlədiyinin fərqində idi. O, oynadığı rolun təsirinin tamaşadan sonra da qalmasını istəyirdi. Çalışırdı ki, tamaşaçılar teatr qapılarından o təsirlə çıxsınlar. Axırıncı səhnədə can verən Saranın əzablarını, son sözlərini, bu səhnənin yaratdığı göz yaşlarını unudulmaz təəssürat kimi özləri ilə gündəlik həyat və məişətlərinə daşısınlar. Hər dəfə xatırladıqca o səhnələr insanları mənən saflaşdırsın.

## Enişli-yoxuşlu yollar

Həyatı ilə bağlı ona verilən sualı böyük sənətkar vaxtilə belə cavablandırmışdı: "Mənim həyatımı uzun bir yola bənzətsək, bu yol heç də həmişə hamar olmayıb. Sevinc dolu günlərim də olub, kədərli günlərim də. Bir sözlə, məşəqqətli və ilhamlı günlər yaşamışam. Amma heç vaxt sızıldayıb, ah-uf eləməmişəm".

İlk dəfə on altı yaşında ikən o zaman rəqqas kimi eyni səhnədə çıxış etdikləri Fərəc Cavanşirovla ailə həyatı qurmuşdu. Bir il sonra onların Cavanşir adlı oğlu dünyaya gəlmişdi. Amma bu evliliyin ömrü qısa çəkmişdi. Leyla xanım ikinci dəfə Kamil Aslanovla ailə həyatı qurmuşdu. Kamil Aslanov diş həkimi olsa da, rəqsə böyük maraq göstərirdi. O da Leylanı rəqs səhnəsində görüb bəyənir, elçi göndərir. Beləcə, xoşbəxt sayıla biləcək yeni bir ailə həyatının təməli qoyulur.

Əfsus ki, ömrün qürubuna doğru xoşbəxt günləri bir-birinin ardınca faciələr əvəz edir. Həyat yoldaşı Kamil Aslanov xaricdə ağır yol qəzasına düşür və həlak olur. Bu hadisədən bir il sonra isə aktrisanın böyük qızı Laləni Bakıda maşın vurur. O da 48 yaşında dünyasını dəyişir. Bu iki hadisədən sonra Leyla Bədirbəyli depressiyaya düşür. Özünə qapanır. Heç kimlə görüşmək, danışmaq istəmir. Yalnız 1999-cu il yanvarın 1-də bu böyük aktrisanın sənətinə, şəxsiyyətinə hər zaman yüksək dəyər verən Ulu Öndər Heydər Əliyev ona "İstiqlal" ordenini təqdim edərkən evdən çıxıb ictimaiyyət arasında görünür. Elə həmin il noyabrın 23-də də 79 yaşında dünyadan köçür.

Nə qədər acı olsa da, həyatın qanunu dəyişməzdir. Ən böyük gözəlliklər də bir gün köçünü sürüb gedir. Amma əbədiyyət ömrü deyilən bir həqiqət də var. Leyla Bədirbəyli kimi sənətkarların gözəlliyi əbədidir. Bu gözəllik onun qəlbinin sevgisi, bitib-tükənməyən istedadı ilə yaratdığı rollarda, unudulmaz obrazlarda yaşayır. Azərbaycan gözəlinin qənirsiz çöhrəsi onun obrazlarının simalarından boylanır və könülləri fəth edir.

Dünən də, bu gün də, sabah da...

***İradə ƏLİYEVA, "Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov Yevlax şəhərində Yevlax rayonunun sakinlərinin, həmçinin bu rayonda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib.

Fövqəladə Hallar naziri tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb. Bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

Həmin gün Fövqəladə Hallar nazirinin müavinləri Ragim Lətifov Mingəçevirdə, Orucəli Hacıyev isə Ağdaşda vətəndaşların müraciətlərini dinləyib.

* * *

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Quba rayonunda vətəndaşları qəbul edib, onların müraciətlərini yerində araşdırıb. Quba və ətraf rayonlardan qəbula gələn vətəndaşlar, əsasən, əlilliyə, güzəştli şərtlərlə yaşa görə pensiya hüquqlarının həyata keçirilməsi və ünvanlı sosial yardımla bağlı müraciətlərinin nəticəsiz qalması, müalicə və əməliyyat olunmaları, məhkəmə qərarları əsasında verilən icra sənədlərinin, o cümlədən alimentlərin alınmasına dair icra vərəqələri üzrə icraatın gecikdirilməsi, bələdiyyə tərəfindən fərdi yaşayış evinin tikintisi üçün ayrılmış torpaq sahəsinin sənədləşdirilməsi ilə bağlı müraciətlər ediblər.

Ombudsman tərəfindən qəbul edilmiş hər bir vətəndaş fərdi qaydada dinlənilib, onlara hüquqi məsləhətlər verilib, ərizələri qəbul olunmaqla icraata götürülüb, bir sıra müraciətlər isə yerində təmin olunub.

***AZƏRTAC***

# Beynəlxalq aləm

## Britaniya Avropa İttifaqını rəsmən tərk etdi




Dünən Böyük Britaniya rəsmən Avropa İttifaqından (Aİ) ayrılmışdır. Bu, Brexit haqqında referendumdan 3,5 il sonra baş vermişdir.

Baş nazir Boris Conson bu münasibətlə xalqa müraciət edərkən 47 il ərzində Aİ tərkibində olmuş dövlətin yeni siyasətinin prioritetlərinə toxunmuşdur. Onun dediyinə görə, Brexitdən sonra Britaniyanın qarşısında yeni imkanlar açılmışdır: immiqrasiyaya nəzarət, azad limanların yaradılması, balıqçılıq sahəsinin sərbəst olması və azad ticarət haqqında sazişlərin bağlanması. Hökumətin başçısı həmçinin diqqəti yaxın gələcəkdə bir neçə vacib istiqamətə, o cümlədən iqlim dəyişikliyi ilə mübarizə, dünyada insan hüquqları uğrunda mübarizə və qadın təhsilinin dəstəklənməsinə cəlb etmişdir.

Conson bir daha xatırlatmışdır ki, son illər Aİ siyasətinin istiqaməti Londonun təsəvvürünə zidd idi. Məhz bu səbəbdən 3,5 il öncə britaniyalıların yarıdan çoxu Brexitə səs vermişdir.

İndi Aİ və Britaniya ilin sonunadək keçid dövrü yaşamalıdır. Bu müddətdə tərəflər qarşılıqlı münasibətlər barədə danışıqlar aparmalıdır.

## Çində koronavirusdan ölənlərin sayı 259 nəfərə çatdı



Çində 2019-nCoV virusunun törətdiyi sətəlcəmə yoluxanların sayı 11791 nəfər təşkil etmiş, 259 nəfər dünyasını dəyişmişdir. Bu barədə ÇXR Gigiyena və Səhiyyə Məsələləri Dövlət Komitəsi məlumat vermişdir.

Aşkar olunmuş xəstələrin sayına görə birinci yeri Hubey (7,1 mindən çox yoluxma, 249 ölən) və bu əyalətin inzibati mərkəzi Uhan şəhəri tutur. Paytaxt Pekində artıq 139 yoluxma halı qeydə alınmışdır. Ümumiyyətlə, ölkənin bütün əsas ərazi vahidlərində yeni koronavirusa yoluxma halları mövcuddur.

## ABŞ Çin koronavirusu üzündən fövqəladə vəziyyət rejimi elan etdi



ABŞ Səhiyyə və Sosial Xidmətlər naziri Aleks Azar ölkədə fövqəladə vəziyyət rejimi elan etmişdir. Rejim bugündən qüvvəyə minir və xəstəlik mənbəyi ola biləcək əcnəbi vətəndaşların ABŞ-a girişinə müvəqqəti qadağa qoyur.

Risk qrupuna azı iki həftə əvvəl Çində olmuş əcnəbilər daxildir. Hesab olunur ki, məhz 14 gün ərzində virus özünü aşkarlamağa başlayır. Prezident Donald Trampın fərmanına əsasən, qadağa ABŞ vətəndaşlarına və rezidentlərinə, habelə onların ailə üzvlərinə şamil edilmir. Onlar ÇXR-dən qayıtdıqdan sonra xüsusi müşahidə altında olacaqlar.

Bundan əlavə, ABŞ-dakı hava limanlarının əksəriyyəti Çinlə aviasiya əlaqəsini dayandırır. Təcili hallar üçün ölkənin müxtəlif hissələrində yeddi aeroport nəzərdə tutulmuşdur. Hazırda ABŞ-da yeddi nəfər yeni tipli koronavirusa yoluxmuşdur.

## Yaponiyada iki zəlzələ baş verdi



Yaponiyanın paytaxtı Tokio yaxınlığında iki zəlzələ baş vermişdir. Bu barədə Yaponiya Meteorologiya Agentliyi məlumat vermişdir .

Yeraltı təkanlardan 5,1 bal gücündə olan birincisi gecə saat 01:11-də qeydə alınmışdır. Zəlzələnin episentrinin İbaraki prefekturasında, ocağının isə 50 kilometr dərinlikdə yerləşdiyi bildirilir.

İkinci zəlzələ gecə saat 02:07-də baş vermişdir. 5,3 bal gücündə olan zəlzələnin episentri Çiba prefekturasında olmuşdur. Onun ocağı 73 kilometr dərinlikdə idi. Dağıntılar və zərərçəkənlər barədə məlumat verilmir.

## Bermud üçbucağında XX əsrdə yoxa çıxmış gəmi tapıldı

Dəniz arxeoloqları Bermud üçbucağında 95 il əvvəl qəzaya uğramış "SS Cotopaxi" gəmisini tapmışlar. Bu barədə "Fox News" telekanalı xəbər verir.

Kömür daşıyan gəmi 1925-ci il noyabrın 29-da Çarlstondan Havanaya yola düşmüşdü. İki gündən sonra 30 heyət üzvü olan paroxod itkin düşmüş elan edilmişdir.

Dəniz bioloqu və sualtı dünyanın tədqiqatçısı Maykl Barnett britaniyalı tarixçi Qay Uolterslə əlaqə saxlamışdır. O öz növbəsində "SS Cotopaxi"nin sığorta brokeri olmuş "Lloyd" şirkətinin arxivlərindəki yazılarla tanış olmuşdur. Uolters sənədlərdə əvvəllər məlum olmayan informasiya aşkar etmişdir: gəmi Çarlstonu tərk etdikdən iki gün sonra - 1925-ci il dekabrın 1-də fəlakət siqnalları vermişdir.



35 il əvvəl bu rayonda, Sent-Oqastin şəhəri sahillərinin yaxınlığında naməlum gəminin qalıqları tapılmışdı. 2020-ci ildə alimlər qrupu həmin yerə qayıtmış və orada həqiqətən ötən əsrdə yoxa çıxmış gəminin qalıqlarının olduğunu müəyyənləşdirmişdir.

Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6960
Sifariş 302
Qiymәti 40 qəpik